# Rəhmət və sevgi dini

# İSLAM

Kerim Uçar



KERİM UÇAR

# RƏHMƏT VƏ SEVGİ DİNİ İSLAM

TBİLİSİ 2018

**Kitabın Adı:**

Rəhmət və sevgi dini İslam

**Yazan:**

Kerim Uçar

**Türkcədən çevirən:**

Bahar Məmmədova

**Redaktor:**

Akif Xansultanlı

**Kompüter tərtibatçısı**

Elmar Məmmədov

Gürcüstan Müsəlmanları İdarəsi

Almaniya Alulbeyt Müəssisəsi

2018

## ÖN SÖZ

Həmd Allaha məxsusdur ki, öyənlərin Onu haqqı ilə tərifləməyə gücü yetməz, sayanlar nemətlərini sayıb qurtara bilməz, gecə-gündüz çalışanlar belə, haqqını olduğu kimi əda edə bilməzlər. Aləmlərə rəhmət və ümmətə nemət olaraq göndərilən Məhəmməd bin Abdullaha (s) salat və salam olsun. Yenə Allahın salat və salamı ümmətin imamı və mürşidi, Hz.Məhəmməd Mustafanın (s) varisi Əli bin Əbu Talibə (ə) və onun on bir haqq xəlifə və xüsusən aləmin xilaskarı, Qaim, Ali Muhəmməd, İmam Mehdi Əleyhis-səlama olsun.

İslam düşmənləri bütün güclərini səfərbər edərək tapdıqları hər fürsətdə bu mərhəmət, sülh və sevgi dolu dinə təhqirlər yağdırıb, İslam dinini vəhşi və müharibə tərəfdarı olan bir ideologiya kimi təqdim etməyə çalışırlar. Düşmənlər bütün texnoloji güclərini istifadə edərək aləmlərə rəhmət olaraq göndərilən Həzrət Məhəmmədin (s) dinini qılınc gücünə insanlara qəbul etdirdiyini iddia edib, təşkil etdikləri müxtəlif seminar və simpoziumlarda İslamın cihad hökmünün qeyri-insani olduğunu uca İslam dini haqqında məlumatı olmayan gənclərə aşılamağa çalışırlar.

İslam və dünya tarixindən az da olsa məlumatı olan hər bir ağıllı insan və insaf sahibi hər azad düşüncəli insan Quranın əmrlərini, Peyğəmbərimiz (s) və onun həqiqi xəlifələrinin yaşam tərzlərini aydın görüb dərk edə bilir. Həmçinin, öz dövrünə mənsub hakimiyyət nümayəndələrinin qeyri-müsəlmanlara qarşı münasibətlərini incələyərkən, İslam dininin nə qədər rəhmət və sevgi dolu bir din olduğunu etiraf etmək məcburiyyətində qalırlar.

Həzrət Məhəmmədin (s) gətirdiyi İslam dininin qılınc və zorakılığa söykənən bir inanc olduğunu deyənlər tarixi həqi-

qətlərdən ya xəbərsizdirlər, ya da İslam dinini qaralamağa yönəlik xüsusi məqsəd güdənlərdilər.

Mədəniyyətin beşiyi və mərkəzi, insan haqları müdafiəçilərinin fəryadlarının yüksəldiyi ölkələrə baxanda, onların nə qədər mərhəmət və insani dəyərlərdən məhrum olduqları göz önündə aydın görünür.

XV əsrdən başlayaraq ispanlar, Meksikanı işğal etdiklərində yerli xalqın musiqiyə olan çılğınlığını qadağan etdilər və bu qadağaya uymayanların əllərini kəsməyə başladılar. Rum İmperatorluğu gücləndikdən sonra, azlıq təşkil edən yəhudilərə bir neçə dəfə soyqırım cəhdi göstərmiş və çox sayda insanı qətliam etmişdir.

Xristianlar gücləndikləri zaman yəhudiləri öz ölkələrindən çıxarıb sürgün etdilər. Sürgün edilən yəhudilər İran və Osmanlı padşahlarının icazəsi və mərhəməti altında o zamanların müsəlman coğrafiyasına daxil olan İspaniya və Portuqaliya kimi ölkələrə sığındılar. Bir çox xristian ölkələrində yəhudilərin bütün hüquqları əllərindən alınmış və habelə onların qul kimi alınıb satılması da qadağan olunmuşdu.

İtalyan Ensiklopediyasında belə nəql edilir: "XVI əsrdə Avropanın qapıları yəhudilərə tamamilə bağlanmışdır. Onlar sadəcə, İtaliyanın şimalında, Almaniya və Fransanın bəzi kiçik bölgələrində sərbəst yaşayırdılar".

1648-ci ildə İngilis Parlamenti xristianlıq inancına qarşı çıxanlar haqqında edam qanununu çıxartdı.

İngilis Parlamenti 1688-ci ildə Protestantlığı ölkənin rəsmi məzhəbi olaraq tanıyıb bunu qanuniləşdirdi. Digər tərəfdən,

Katoliklərə katolik kimi ibadət etmələri haqda qadağan hökmü çıxartdılar.

XVII əsrin sonlarına qədər Fransanın əleyhinə olan bəzi qanunlar əsasında Protestant xristianlar böyük təzyiqlərə və işgəncələrə məruz qaldılar. Belə ki, protestantlar ölülərini də sərbəst şəkildə dəfn etmirdilər, hətta onların dəfn mərasimlərində 30 nəfərdən artıq insanın iştirak etməsinə də icazə verilmirdi. Eyni şəkildə, nikah və digər dini mərasimlərində də on iki nəfərdən artıq insan iştirak edə bilməzdi[1].

İslam tarixinə baxdığımızda bu məktəbin layiqli liderlərinin azlıq icmalara qarşı baxışlarının, onlara və bəşəriyyətə verdiyi dəyərlərin nə qədər üstün səviyyədə olduğunu açıq-aydın bir şəkildə görürük.

İmam Sadiq (ə) bir hədisdə uca Allahın belə buyurduğunu nəql edir: "İnsanların hamısı mənim ailəmdəndir. Mənim qatımda ən sevimli və dəyərli adamlar insanların ehtiyaclarını aradan qaldırmaq üçün çalışanlardır[2]".

Tarixə nəzər saldıqda, İmam Əlinin (ə) xəlifəliyi dövründə azlıqda olan dini icma nümayəndələrinin inanclarını istədikləri kimi sərbəst həyata keçirdiklərinin şahidi oluruq. Hətta İmam Əli (ə) valilərinə və əməkdaşlarına tövsiyyələr yazaraq azlıqdakı din mənsublarının, xüsusən də Əhli Kitabın haqq və hüquqlarının gözlənilməsini vurğulamış və onları bu məsələdə daha diqqətli olmağı əmr etmişdir.

Həzrət Əli (ə) Misir valisi Malik Əştərə belə bir əmrnamə göndərmişdir: "Xalqına yaxşı davranmağı qəlbinə yerləşdir, onları

---

[1] Beynəlxalq Hüquqlar, c.3, s.234 (Dr. Safteri)
[2] Üsulu Kafi, c.2, s,199 (Türkcəsi)

sevməyi və onlara yaxşılıq etməyi özünə prinsip tut! Onlara qarşı qalibiyyəti qənimət bilən yırtıcı bir canavar olma. Çünki insanlar iki cürdür; Ya dində sənin qardaşlarındır, ya da yaradılışda səninlə bərabərdirlər[3]".

Abdullah Kuayn belə nəql edir: İmam Əlinin (ə) vəfalı və sadiq komandirlərindən Makal b. Kays Riyahi mürtədlərlə (dindən çıxanlarla) müharibəyə getməzdən əvvəl son dəfə Həzrət Əlinin (ə) hüzuruna gələrək yürüş üçün icazə istədi. Həzrət Əli (ə) ona belə buyurdu: "Ey Makal! Əlindən gəldiyi qədər təqvalı ol ki, bu Allahın möminlərə əmridir. Qiblə əhlini (Müsəlmanlar) talayıb, haqqına təcavüz etməyib, Əhli-kitaba zülm etmə[4]"! Həzrət Əlinin (ə) bu sözünü oxuyub öyrənən insaf sahibi bir kimsə İslam dini haqqında nə düşünə bilər: "İstər müsəlman, istər qeyri-müsəlman hamı ilə eyni rəftar edin! Müsəlmanlar qardaşlarınız, müsəlman olmayanlar isə (yaradılışda) sizin kimi insandırlar".

Yenə Nəcran xristianlarına verdiyi sözlərində Hz.Əli belə deyir: Nə assimilyasiya edilirlər, nə də haqsızlığa məruz qalırlar, nə də haqlarından hər hansı bir şey azalmır!

İmam Əli, (ə) xristianın intiqamını Müsəlmanınkı ilə bərabər tuturdu.

"Heç kəs onu digər insandan uzaqlaşdıra bilməz, heç bir səs digər bir səsi unutdurmur".

Əlinin (ə) nəzərində hər bir insanın şərəfi var. Hər səsə qulaq asardı. Cahillərin boşboğazlığına və keçmiş dövrlərdəki bütün dinlərə mənsub insanların axmaqlığına baxmayaraq, məhz Əlinin (ə) universal ədalət anlayışı və bunu din, dil və irq ayrı-seçkiliyi

[3] Nəhcül-bəlağə, məktub 53

[4] Şərhi İbn Əbil Hədid, c.3, s.137, Biharul,Ənvər c.33, s.411

etmədən hər kəs haqqında tətbiq etməsi onu həm öz dövründəki və həm də öz zamanından sonrakı dövrlərdə ərəb coğrafiyasındakı xristianların gözündə ən uca insan qərar verdi.

Baxın, bu dinin xəlifəsi Əli (ə) müsəlmanların qeyri müsəlmanlarla əlaqələrinin və onlarla necə əlaqə içində olmasını nə qədər dəqiq bir fikirlə ifadə etmişdir: “Malları bizim mallarımız, qanları da bizim qanlarımızdır”. Özündən sonra da bunun sünnə olaraq qalmasını istəmişdi.

İslam və Həzrət Əlinin (ə) Əhli-Kitabın hüquqlarının qorunması, onlara baxış bucağı, bu qısa cümləsindən çox dəqiq bir şəkildə anlaşılır. Ümidvarıq ki, o, həzrətin yolunda getdiklərini iddia edən bütün müsəlmanlara dərs olar.

İmam Əli (ə) insanlara insan gözü ilə baxıb müsəlmanı İslam və iman bağı, qeyri-müsəlmanın da yaradılışda insan olmasını, bərabər hüquqlara sahib olduqlarını müdafiə edirdi. Həzrət Əli (ə), İslam dininin ədalət anlayışını praktiki dost və düşməni eyni kateqoriyada dəyərləndirib, onlara bərabər yanaşdığını və bütün insanlara məhəbbət gözü ilə baxılması lazım olduğunu irəli sürür. Həzrət Əlinin (ə) bu fikri qərb mütəfəkkirləri və liderlərinin fikirləri ilə müqayisə edilərsə, sizcə necə bir nəticə əldə etmiş olarıq? Onlardan bir neçəsinin fikrinə nəzər salaq:

Aristotel öz kitabında belə deyir: "Yunan şəhərləri bir-birinə hakim olma hüquqlarına malik deyil. Çünki, yunanlar hürr yaradılmışlar. Ancaq yunanlar başqa şəhərləri ələ keçirə və onları əmrləri altına ala bilərlər". İnsan haqları müdafiəçilərinin əsas öndərlərindən olan bir xristian belə deyir: "Ədalət, hər bir insanın təbii haqqıdır və ədalət sistemi içində yaşamaq Allahın insanlara verdiyi bir haqdır. Eyni şəxs mövzu ilə bağlı öz fikir və əqidəsini

belə bəyan edir: Kafirlər (Xristian olmayanlar) insan deyillər. Yəni heç bir haqq və hüquqa sahib deyillər".

Amma Həzrət Əli (ə) hökuməti dövründə bütün insanlara (müsəlman və qeyri müsəlmanlara) hörmət və bərabər rəftar etməyi özünə vacib bilirdi. Müsəlmanların hüquqlarını qoruyub saxladığı kimi, onların da hüquqlarını qoruyub saxlayardı.

Siz oxuculara təqdim edilən bu kiçik kitab Quran və sünnə işığında müqəddəs İslam dininin dil, din, irq və rəng fərqi qoymadan bütün bəşəriyyəti mərhəmət, sevgi, şəfqət və məhəbbət çətiri altına aldığını və İslamın düşmənlərinin iddia etdiyi qılınc, zorakılıq və barbarlığa bağlı bir din olmadığını nümayiş etdirir. Ola bilsin ki, Kitab-əhli və qeyri-müsəlmanlarla iç-içə olan, eyni məktəbi, iş yerini, mənzili, məhəllə, eyni qəsəbə, şəhər və ölkə bölüşən saf gənclərimiz bu əsərdən istifadə edərək qeyri-müsəlmanlara müqəddəs İslam dinini kitab əhli və qeyri-müsəlmanlara gerçək İslam əxlaqını və ideyasını izah etsinlər.

Kitab beş hissədən ibarətdir:

I: Quranda İslami mərhəmət və sevgi.

II: Hədislər işığında İslami mərhəmət və sevgi.

III: Peyğəmbər (s) və xəlifələrin yaşayışında İslami mərhəmət IV: Suallar və etirazlar.

V: Hədislər işığında humanitar əlaqələr.

Ümid edirik ki, bu kiçik əsər, başdan ayağa rəhmət və sevgi ilə dolu olan Müqəddəs din və şəriət sahibi yanında bizdən qəbul edilər və savabı qiyamət və axirətdə yolumuza nur və işıq olar.

***Kerim Uçar***

*16 May 2010. Berlin, Almanya.*

*02 C.Ahir 1431. Həzrət Fatimənin şəhadət ildönümü*

**BİRİNCİ HİSSƏ**

# İSLAMDAKI MƏRHƏMƏT VƏ SEVGİNİN QURANA GÖRƏ TƏSVİRİ

## İSLAM ŞİDDƏT, YOXSA RƏHMƏT DİNİDİR?

İslam düşmənləri, İslam dinini mənafe və maraqlarının qarşısına çəkilən bir maneə kimi gördükləri ilk gündən etibarən, bu dinə qarşı necə mübarizə və müharibə edəcəkləri barədə düşünməyə başladılar.

Bu hədəf və məqsədləri uğrunda hər yola əl atmışlar. Dinə qarşı mübarizə və müharibə İslamiyyətin ilk doğulduğu gündən etibarən başlayaraq günümüzə qədər davam etmiş və bundan sonra qiyamətə qədər də davam edəcəkdir. Xüsusilə də günümüz dünyasında dinə qarşı müharibə və mübarizə bəzi kapitalist ölkələrin əsas məqsədlərindən biri olmuşdur. İslam əleyhdarı mənfəətpərəst siyasətçilər görünüşdə bəzi İslam alimlərini mübarək Ramazan ayında dəvət edib iftar yeməyi versələr də, bu iyrənc məqsədlərindən bir an belə əl çəkməmişdirlər.

Kapitalist İslam düşmənlərinin dinə qarşı yürütdükləri alçaqcasına təbliğat və mübarizələrindən biri, İslamın mərhəmət, şəfqət, sevgi və həyat verən simasını tərsinə çevirib onu kobud, sərt, əzazil və qılınca söykənən bir inanc kimi tanıtmaqdır. İşi daha da irəli apararaq belə deyirlər: “İslam müharibə, qılınc və zorakılıq dinidir! İslam insanın zərif və yumşaq ruhu ilə uyğun deyil. İslam, insan haqlarını görməməzlikdən gələn bir dindir”!

İslam düşmənləri siyasət və məqsədlərinin əsasını təşkil edən saysız-hesabsız yalan, intriqa və fitnəkarlıqlarla özündə bütün bəşəriyyəti sülhə, sevgiyə və qardaşlığa dəvət edən müqəddəs İslam dinini dünyaya mənfi bir şəkildə tanıtmaq səyi içindədirlər.

Təəssüflə demək lazımdır ki, bəzi:- müsəlmanam,- deyə yaşayan, həqiqətdə İslam və müsəlmançılıqdan yaxından-uzaqdan heç bir əlaqəsi olmayan Taliban qrupu, Əfqanıstan hökumətini qəsb edib insanlara İslam və Müsəlmanlıq adına hər cür zülm və işgəncəni amansızlıqla rəva görüb, İslam düşmənlərinin bu zəhərli təbliğatına vasitəçilik etmiş və etməkdədir. Əslində İslam dinini yaxşı bilən ağıllı insan, vicdan və insaf sahibi Taliban qrupunu bəzi imperializm və kapitalist ölkələrinin İslama qarşı bir silah kimi meydana çıxardığını yaxşı bilir.

Allahdan və insani dəyərlərdən məhrum bu canilər qısa bir müddətə iş başına gəldikləri hökumətlərində şəriət və din adından böyük, kiçik, yaşlı, gənc, qadın və kişi demədən çoxsaylı günahsız və müdafiəsiz insanları qətl edib, başlarını bədənlərindən ayırıb, videolara qeyd edib və bu görüntüləri bütün dünyaya yayıblar. Müdafiəsiz insanlara tətbiq olunan bu şiddət, zülm və soyqırımlar bütün bəşəriyyəti dərindən sarsıtmış və nifrətlərinə səbəb olmuşdur. Başda müsəlmanlar olmaq üzrə bütün dünya millətləri Taliban qrupunun vəhşicəsinə törətdiyi qeyri-insani cinayətlərdən son dərəcə narahatdırlar.

Taliban qrupundan daha amansız bir qrup olan Əl-qaidə də eyni cinayətləri amansızlıqla məzlum İraq xalqının başına açmışdır. Bütün dünya Əl-qaidənin İraqda vəhşicəsinə törətdiyi cinayətlərə şahiddir. Dünya ölkələrinin gözləri önündə törədilən bu cina-

yətlərə təəssüf ki, sözdə mədəniyyət və sülhün simvolu olan kapitalist ölkələri tamaşaçı qalır, orada işlənən saysız-hesabsız və müxtəlif işgəncələr bəşəriyyətin, bütün dünyanın ayıbıdır.

Allaha şükürlər olsun ki, dünya müsəlmanları müxtəlif maskalar taxaraq insanları qətlə yetirən bu qrupları pisləyərək onların və cinayətlərinin İslam dinindən uzaq olduqlarını deyirlər.

Bu məsələni nəzərə alaraq ciddi bir şəkildə araşdırma aparmaq lazımdır. Məgər İslam dini zorakılıq, müharibə, kin, nifrət və ixtilaf dinidir, yoxsa mərhəmət, məhəbbət, sevgi və hörmət dini?

İslam və müsəlmanlar əleyhinə ortaya atılan bu cür iddiaların və etirazların cavabını hər cür təhrif və xətadan qorunmuş Quran və dinin qoruyucusu, aləmlərə rəhmət olaraq göndərilən Həzrət Məhəmməd (s) və onun 12 pak xəlifəsinin yaşam tərzinə və kəlamlarına müraciət etməliyik. O böyük şəxslərin tarixin qəlbində yer tutmuş nümunə yaşayışlarına baxıb, mədəniyyət və insanlıq fəryadları yüksəldən kapitalist qərblilərin əməlləri ilə müqayisə edərək, qara buludlar arxasında gizlənmiş həqiqət günəşini açığa çıxaraq.

## QURAN İŞIĞINDA RƏHMƏT VƏ SEVGİ

Qurani-Kərimin surə və ayələrini diqqətlə nəzərdən keçirdikdə, ilahi kitabın bir çox ayəsində mərhəmət, sevgi və hörmətin ön planda olduğunu görürük. Əslində dinin özülünü də sevgi, hörmət və gözəl əxlaq yaradır. Bütün peyğəmbərlərin, imamların və müqəddəslərin ortaq məqsədləri əxlaqi dəyərləri cəmiyyətə hakim etməkdir.

Qurani-Kərimdəki 114 surədən 113-ü Allahın mərhəmət, sevgi və məhəbbət mesajını daşıyan "Bismillahir-rəhmanir-rəhim" xitabı ilə başlayır. Bu rəhmət məzmunlu cümlə Nəml surəsində iki dəfə təkrar edilmişdir. Qurani-Kərimin yalnız bir surəsi bismillahsız başlayır ki, onun da səbəbi çox açıq və birmənalıdır. Bismillahsız başlayan yeganə surə Tövbə surəsidir. Bu surə cahil, fanatik, inadkar və doğru yoldan ümidləri kəsilmiş İslam düşmənlərinə qarşı elan edilən bir döyüş və bəraət mesajı xarakteri daşıyır.

Aydındır ki İslam düşmənləri ilə müharibə və mübarizədə sevgi və mərhəmətin yeri yoxdur. Allahın dininə qarşı müharibəyə başlayanlar heç bir sevgi və hörməti haqq etmirlər. Bu səbəbdən də Allahın rəhmət və sevgi ifadə edən sözü onları öz əhatə dairəsinə almaz. Bu qısa açıqlamadan sonra Quranın rəhmət və sevgi dolu bir kitab olduğu görünür.

Əziz oxucular, İslamın ən böyük möcüzəsi olan Quranın ayə və surələrində mərhəmət, sevgi və şəfqət açıq bir şəkildə vurğulandığı nəzərə alındıqda və bütün bəşəriyyəti sülhə, qardaşlığa və mərhəmətə dəvət edən bir din anlayışında sizcə, zorakılığın, inad göstərməyin, qılınc və qanın yeri ola bilərmi?

## 1-PİSLİYƏ YAXŞILIQLA QARŞILIQ VERİN!

Uca Allah Rəhman surəsinin 60-cı ayəsində belə buyurur:

هَلْ جَزَاء الْإِحْسَانِ إِلَّا الْإِحْسَانُ

“Yaxşılıq əvəzi ancaq yaxşılıqdır!5”.

Bu ayəyə diqqət ediləndə əvvəldən axıra kimi məhəbbət və sevgi mesajı dolu olduğu görüləcəkdir ki, sözdə deyil, əqidədə sevgi və məhəbbət müsəlmanların təməl inanclarındandır.

İlahi ayələri bir az xırdalayarkən uca Allahın “pisliyi yaxşılıqla dəf edin”,- əmri ilə qarşılaşacağıq. Uca Allah Möminin surəsinin 96-cı ayəsində belə buyurur:

ادْفَعْ بِالَّتِي هِيَ أَحْسَنُ السَّيِّئَةَ نَحْنُ أَعْلَمُ بِمَايَصِفُونَ

“Sən pisliyi yaxşılıqla dəf et! (Gözəl xislət sahibi olub sənə pislik edəni, əziyyət verəni əfv et!) Biz (müşriklərin Bizə) aid etdikləri sifətləri (və sənin haqqında dedikləri nalayiq sözləri) daha yaxşı bilirik![6]”.

Ey Peyğəmbərim! Aldadılan, sənə qarşı qatı və qəddar olanları məhəbbət və sevgi ilə İslama və dinə dəvət et.

Tarixi bir qədər tədqiq etdikdə İslam Peyğəmbərinə iman edənlərin böyük əksəriyyətinin o həzrətin gözəl əxlaqı sayəsində müsəlman olduğunu görürük. Peyğəmbərimizin gözəl əxlaqı və məhəbbətinə görə müsəlman olan kəslərin sayı Peyğəmbərin məntiq və münazara yolu ilə müsəlman etdiyi insanlardan daha çoxdur.

---

[5] Rəhman – 60

[6] Mömin – 96

Dəyərli oxucular, məntiqi və düşüncəsi zorakılıq, kobudluq və müharibə olan bir ideologiyanın Peyğəmbərinə "pisliyə yaxşılıqla cavab ver",- deyə əmr edilə bilərmi? İnancında müharibə və qan olan bir din və inam, məhəbbət, sevgi, hörmət və mərhəmət dini ola bilərmi?

Bu ayə haqqında İmam Cəfər Sadiqdən (ə) belə nəql olunur: "Hz. Məhəmməd (s) peyğəmbərliklə müjdələndiyi gündən etibarən Allaha qarşı təvazökarlığından bir şey yeyərkən və içərkən söykənərək etmədi. Yanında oturan birinə heç vaxt dizlərini göstərmədi, özünə əl verən birinə o əlini çəkmədikcə əlini çəkmədi, özünə edilən heç bir pisliyə eyni pisliklə qarşılıq vermədi. Allah buyurmuşdur ki: "Sən, pisliyi yaxşılıqla dəf et". O da özünə əmr ediləni etdi və ondan bir şey istəyən əli boş geri çevirmədi, bir şey olsa verər, olmasa gözəl bir əxlaqla: "Allah sənə versin",- deyə dua edərdi[7]".

**2-İSLAMDA RƏHMƏTİN BÖYÜKLÜYÜ**

Allah-Təala Casiyə surəsinin 14-cü ayəsində belə buyurur:

قُل لِّلَّذِينَ آمَنُوا يَغْفِرُوا لِلَّذِينَ لا يَرْجُون أَيَّامَ اللهَّ لِيَجْزِيَ قَوْمًا بِما كَانُوا يَكْسِبُونَ

"(Ya Peyğəmbər!) İman gətirənlərə de ki, Allah etdiyi əməllərə görə hər hansı bir qövmün cəzasını (özü) versin deyə, Allahın

[7] el-Kafi c.8, s.166

(əzab) günlərindən qorxmayanları (əzab günlərinə, qiyamətə inanmadıqları üçün gözləməyənləri) bağışlasınlar![8]".

Bu ayənin açıq və dəqiq ifadəsi Allahın rəhmət və əfvı müsəlmanlara və möminlərə xas bir şey deyil, əksinə uca Allah həm müsəlmanlara, həm də qeyri-müsəlmanlara şəfqətli, mərhəmətli və məhəbbətli olmağı əmr etmişdir.

İnsafla demək lazımdır ki, məgər sevgi və mərhəmətə hər şeydən daha çox əhəmiyyət verən belə bir din zorakılıq və müharibə dini ola bilərmi?

Lut qövmünün cəzalandırılması ilə bağlı hekayədə nəql olunur ki, Allahın vəzifələndirilmiş əzab mələkləri insan şəklində Həzrət İbrahimin (s) yanına gəldilər. O mələklərə Lutun qövmünü məhv etmək tapşırılmışdı. Hz. İbrahim (s) qonaqlar üçün yemək hazırladı. Hazırlıqdan sonra süfrə açıldı, lakin qonaqlar əllərini yeməklərə uzatmadılar. Onların bu hərəkəti o zaman adət və ənənələrə görə yaxşı əlamət deyildi. Qonağın qabağına açılan süfrədən bir şey yeməməsi, ev sahibinin qonaqların şərrindən amanda olmadığı mənasına gəlirdi. Qonaq yemək yesə və süfrədən tikələr alsa, ev sahibi rahat olardı və etibarlı olduğunu anlayardı. Beləliklə, Həzrət İbrahimin (s) qonaqlarının bu mövqeyi onu narahat etdi. Hz. İbrahim (s) onlardan nahar etməmələrinin səbəbini soruşdu.

Mələklər belə cavab verdilər: Əvvəla, sənə müjdələr olsun: -Uca Allah səni İshaq ilə müjdələyir, onun nəslindən də peyğəmbərlər

---

[8] Casiyə - 14

gələcəkdir. Həzrət İbrahim (s) və xanımı bu gözlənilməz xəbər qarşısında sevincə boğuldular.

Digər məsələ isə bizə günah və pisliklərlə boğulmuş Lut qövmünü məhv etmək tapşırıldı. Bu xəbər Həzrət İbrahimi (s) ilk xəbərin sevinci qədər kədər və hüznə boğdu.

Həzrət İbrahim (s) Allahın vəzifəli mələklərindən qövmün əzabı və cəzasını yüngülləşdirmək üçün xahiş etdi. Mələklər Həzrət İbrahimin (s) bu istəyinə belə cavab verdilər:

يَا إِبْرَاهِيمُ أَعْرِضْ عَنْ هَذَا إِنَّهُ قَدْ جَاء أَمْرُ رَبِّكَ وَإِنَّهُمْ آتِيهِمْ عَذَابٌ غَيْرُ مَرْدُودٍ

(Mələklər dedilər:) "Ey İbrahim! Bundan (bu mübahisədən) əl çək, Rəbbinin əmri artıq gəlmişdir. Onlara mütləq qarşısıalınmaz bir əzab gələcəkdir[9]".

Həzrəti Lut qövmü yer üzünün ən iyrənc, çirkin və üz qaraldan günahına bulaşmışdı. Buna baxmayaraq, Hz.İbrahim o çirkab günaha bulaşmış xalqa mərhəmət edirdi, onların şiddətli əzabı ona ağır gəlirdi, buna görə də Allaha olan yaxınlıq məqamını istifadə edərək Allahdan o qövmün əzabının yüngülləşdirilməsini və ya tövbə etməsi ümidi ilə ləngitməsini istədi.

Həzrət Lut gecə-gündüz xalqının hidayət və irşadı üçün çalışıb səy göstərirdi, bu yolda müxtəlif zəhmət və işgəncələrə məruz qalırdı. Qövmünə ilahi əzab gəldikdə yenə mərhəmət və sevgi dolu ürəyi o günahkar tayfa üçün ağrımağa başladı. Onların bu halına dərindən kədərlənirdi.

---

[9] Hud – 76

Qurani-Kərim Həzrəti Lutun o halını belə nəql edir:

وَلَمَّا جَاءتْ رُسُلُنَا لُوطًا سِيءَ بِهِمْ وَضَاقَ بِهِمْ ذَرْعًا وَقَالَ هَذَا يَوْمٌ عَصِيبٌ

Elçilərimiz (mələklər) Lutun yanına gəldikləri zaman (tayfası bu gözəl qonaqlara bir pislik yetirər deyə) əndişəyə düşdü, ürəyi sıxıldı və: "Bu, çox çətin (başabəlalı) bir gündür[10]!" - dedi.

Quranı Kərim və Uca İslam dini Həzrəti İbrahimin (s) bu məhəbbət və sevgisini bizlərə dərs və ibrət olaraq nəql etmişdir. Şübhəsiz ki, Allahın peyğəmbərləri bəşəriyyət üçün ən gözəl nümunələrdir.

Biz vicdan sahibi və hər cür pislikdən uzaq təmiz ürəklərə deyirik ki: Təpədən dırnağa hərtərəfli məhəbbət və sevgi dolu olan belə bir dini etiqadda kin, müharibə və zülmün yeri yoxdur.

**3 - PEYĞƏMBƏRİN (S) ŞƏFQƏTİ**

Peyğəmbərin (s) möcüzələrindən biri də gözəl əxlaqı ilə könülləri fəth edib insanları İslam dininə cəlb etməsidi. Uca Allah Ali İmran surəsinin 159-cu ayəsində belə buyurur:

فَبِمَا رَحْمَةٍ مِّنَ اللّهِ لِنتَ لَهُمْ وَلَوْ كُنتَ فَظًّا غَلِيظَ الْقَلْبِ لاَنفَضُّواْ مِنْ حَوْلِكَ

"(Ya Rəsulum!) Allahın mərhəməti səbəbinə sən onlarla (döyüşdən qaçıb sonra yanına qayıdanlarla) yumşaq rəftar etdin. Əgər qaba, sərt ürəkli olsaydın, əlbəttə, onlar sənin ətrafından dağılıb gedərdilər. Artıq sən onları əfv et, onlar üçün (Allahdan)

---

[10] Hud – 77

bağışlanmaq dilə, işdə onlarla məsləhətləş, qəti qərara gəldikdə isə Allaha təvəkkül et! Həqiqətən Allah (Ona) təvəkkül edənləri sevər![11]".

Bu ayədə də buyurulduğu kimi, Rəsulullahın (s) Allahdan olan sevgi və məhəbbəti insanları özünə aşiq etmişdir. Necə ki, Allah-Təala Ənfal surəsinin 63-cü ayəsində belə buyurur:

وَأَلَّفَ بَيْنَ قُلُوبِهِمْ لَوْ أَنفَقْتَ مَا فِي الأَرْضِ جَمِيعاً مَّا أَلَّفَتْ بَيْنَ قُلُوبِهِمْ وَلَـكِنَّ اللّهَ أَلَّفَ بَيْنَهُمْ إِنَّهُ عَزِيزٌ حَكِيمٌ

"Və onların (birini düşmən Ovs və Xəzrəc qəbilələrindən olan ənsarın) ürəklərini (ülfətlə, dostluqla) birləşdirdi. Əgər sən yer üzündə nə varsa, hamısını xərcləsəydin belə, yenə də onların ürəklərini birləşdirə bilməzdin. Lakin Allah onları birləşdirdi, çünki O, yenilməz qüvvət sahibi, hikmət sahibidir[12]".

Ayənin nazil olma səbəbinə baxanda görürük ki, Allah Rəsulu (s) əsrlərlə bir-birilərinin qanını tökən, bir-birinə qarşı sevgidən məhrum Ovs və Xəzrəc qəbilələrinin ürəklərini birləşdirib, aralarındakı cahiliyyəti, nifrət və kini qaldıraraq, möcüzəvi bir şəkildə qəlblərinə sevgi və məhəbbət toxumlarını səpdiyini görürük. Rəhmət Peyğəmbərinin (s) ən mühüm və böyük möcüzələrindən biri də, kin və nifrətlə dolmuş qəlbləri birləşdirib, insanların arasında qardaşlığı və ehtiramı təmin etmək olmuşdur. İslami baxışın və inancın əsasında qəlbləri səmimiyyətlə, könülləri

[11] Ali İmran - 159
[12] Ənfal – 63

şəfqətlə birləşdirmək olan bir din və ideologiyada müharibə, kin və zorakılığın əsla yeri yoxdur.

## 4 - İSLAMIN ƏSAS MƏQSƏDİ SÜLH VƏ QARDAŞLIQDIR!

Uca Allah Bəqərə surəsinin 208-ci ayəsində belə buyurur:

يَا أَيُّهَا الَّذِينَ آمَنُواْ ادْخُلُواْ فِي السِّلْمِ كَآفَّةً وَلاَ تَتَّبِعُواْ خُطُوَاتِ الشَّيْطَانِ إِنَّهُ لَكُمْ عَدُوٌّ مُّبِينٌ

"Ey iman gətirənlər! Hamınız bir yerdə sülhə (islama) gəlin! Şeytanın yolu ilə getməyin, çünki o sizin açıq düşməninizdir![13]".

Bu ayədən də göründüyü kimi İslam və Quranın əsas məqsədi barış və sülhü təmin etməkdir. Diqqət etsək Qurani-Kərim, sülh və sülhdən yana olmayanı müharibə, fitnə və Şeytanın tərəfdarları olmaqda günahlandırır. Yəni sülh və barış ilahi bir dəyər, müharibə və zorakılıq isə şeytani bir işdir.

لَا يَنْهَاكُمُ اللَّهُ عَنِ الَّذِينَ لَمْ يُقَاتِلُوكُمْ فِي الدِّينِ وَلَمْ يُخْرِجُوكُم مِّن دِيَارِكُمْ أَن تَبَرُّوهُمْ وَتُقْسِطُوا إِلَيْهِمْ إِنَّ اللَّهَ يُحِبُّ الْمُقْسِطِينَ

"Allah, din yolunda sizinlə vuruşmayan və sizi yurdunuzdan çıxartmayan kimsələrə yaxşılıq etməyi və onlarla ədalətlə rəftar etməyi sizə qadağan etməz. Allah ədalətli olanları sevər![14]".

Ayə açıq və dəqiq bir şəkildə dinimizə hər hansı bir zərbə vurma məqsədi olmayanlara qarşı ədalətli və yaxşı davranmalı oldu-

---

[13] Bəqərə - 208
[14] Mumtəhənə - 9

ğumuzu bildirir. Quran və din yalnız bizimlə döyüşən və bizləri zorla məskənlərimizdən çıxaranlarla dost olmamağı əmr edir.

إِنَّمَا يَنْهَاكُمُ اللَّهُ عَنِ الَّذِينَ قَاتَلُوكُمْ فِي الدِّينِ وَأَخْرَجُوكُم مِّن دِيَارِكُمْ وَظَاهَرُوا عَلَى إِخْرَاجِكُمْ أَن تَوَلَّوْهُمْ وَمَن يَتَوَلَّهُمْ

"Allah sizə ancaq sizinlə din yolunda vuruşan, sizi yurdunuzdan çıxardan və çıxartmağa kömək edən kimsələrlə dostluq etmənizi qadağan edər. Onlarla dostluq edənlər əsl zalımlardır!".

## 5-SEVGİ VƏ MƏRHƏMƏT İLAHİ NİŞANƏDİR!

Quranın bəzi ayələrində Allahın əzəməti, şəfqəti və qüdrəti bizə açıq bir şəkildə göstərilmişdir. Rum surəsinin 21-ci ayəsində belə buyurulur:

وَمِنْ آيَاتِهِ أَنْ خَلَقَ لَكُم مِّنْ أَنفُسِكُمْ أَزْوَاجًا لِّتَسْكُنُوا إِلَيْهَا وَجَعَلَ بَيْنَكُم مَّوَدَّةً وَرَحْمَةً إِنَّ فِي ذَلِكَ لَآيَاتٍ لِّقَوْمٍ يَتَفَكَّرُونَ

"Sizin üçün onlarla ünsiyyət edəsiniz deyə, öz cinsinizdən zövcələr xəlq etməsi, aranızda (dostluq) sevgi və mərhəmət yaratması da Onun qüdrət əlamətlərindəndir. Həqiqətən, bunda (bu yaradılışda) düşünən bir qövm üçün ibrətlər vardır![15]".

Ayədəki "Beynekum" (aranızda) sözünün bir məqsədi də cütlüklər arasındakı sevgi və mərhəmət ola bilər, amma bu ayədə

[15] Rum – 21

deməmk istənilən əsas mövzu insanlar arasında əlaqə, sevgi və mərhəmətdir. Bu ehtimala görə uca Allahın dəlil və nişanələrindən biri də insanlar arasında var etdiyi sevgi və mərhəmətdir.

Bəli, qəlblərin bir birilərinə yaxınlaşması, könüllərin məhəbbətlə qaynaşması və birləşməsi Allahın nişanə və əlamətlərindəndir. Əgər insanlar arasında bu sevgi və mərhəmət olmasaydı, ictimai həyat və yaşam heç vaxt mümkün olmazdı. İnsanların bir-birilərinə qarşı bəslədikləri bu sevgi bağları işlərini nizama qoyar və cəmiyyətdə əmin-amanlıq içində yaşayarlar.

İKİNCİ HİSSƏ

# İSLAMDAKI MƏRHƏMƏT VƏ SEVGİNİN HƏDİSLƏRDƏ ƏKSİ

## HƏDİSLƏRİN İŞIĞINDA RƏHMƏT VƏ SEVGİNİN TƏSVİRİ

Hədis və rəvayətlərdə İslam dininin geniş və tam, mərhəməti, sevgisi və şəfqəti insanlıq üçün əks olunmuşdur. Peyğəmbər və (s) Əhli-beytə (ə) istinadən yayılan rəvayətlərdə İslam dininin əsl məqsədi ictimai mühitdə məhəbbət və sevgini insanlara aşılamaqdır. Buna misal olaraq Peyğəmbər (s) və Əhli-beyt (ə) mənbəli hədis və rəvayətlərdən bir neçəsini diqqətinizə təqdim edirik:

### 1-DİNİN ƏSAS TƏMƏLİ SEVGİ VƏ MƏHƏBBƏTDİR!

Bu məsələ ilə bağlı olaraq Əhli-beyt imamlarının altıncısı olan İmam Cəfər Sadiq (ə) buyurur: **"Görəsən, din mərhəmət və məhəbbətdən başqa nədir? Çünki uca Allah belə buyurur: Əgər Allahı sevirsinizsə mənim əmrlərimə (Peyğəmbər) itaət edin ki, Allahın sevimlisi və sevgilisi olasınız"[16].** Yəni, ilahi əmrlərə tabe olmaq Allaha eşq və məhəbbətdir.

Bir başqa hədisdə İmam Məhəmməd Baqir (ə) belə buyurur: **"Dinin özü məhəbbət, məhəbbətin özü də dindir"[17].**

[16] Mizanul- Hikmət, b.658, h.3097
[17] Nurus-Səqəleyn, c.5, s.285, h.49

Dünya həyatının davamı üçün bir sıra səbəblərə və vasitələrə qərar verilmişdir ki, bu da bəzən ağıl, bəzən də eşq və məhəbbət işlərin həllinə səbəb olur. Bəs sizcə bu iki səbəb bir deyilmi?

Məsələn: Uca Allah insan nəslinin davamı üçün cütlüklərin arasına məhəbbət və sevgini bəxş etdi. Onların qəlblərinə insani və ilahi eşq yerləşdirdi. Əgər insan nəslinin mənfəətində ağıl və məntiq təsirli səbəb olsaydı, yəni nəslin davamı və mənfəəti üçün "yaşlılığımda işlərimi aparan, mənə yardımçı olan biri ilə evlənməliyəm. Evliliyin bir çox problem və çətinliklərinə tabe olmalıyam" məntiqi ilə yola çıxsaydı, qətiyyən evliliyin problem və çətinliyinə sinə gərən müştərək həyat üçün çox az insan namizəd olardı. Uşaq sahibi olub onun əziyyətlərinə dözən çox az insan tapılardı. Amma şəhvət, məhəbbət və eşq insanı evliliyə aparan əsas amildir. Yəni insan bəslədiyi o eşq və məhəbbətlə bütün problemlərə səbr və dözüm göstərir. Beləliklə, bütün ömrünü maddi və mənəvi varlığını uşaqlarına həsr etməklə onları böyüdür. Allah tərəfindən ana və ata qəlbinə yerləşdirilən bu sevgi, şəfqət və eşq olmasaydı, heç bir ana gecənin o şirin yuxusunu gözlərinə haram edib, şəfqət və sevgi ilə qalxıb uşağına baxmazdı. Qeyd edilən bu mövzular dini məsələlərdə də keçərlidir. Yuxarıdakı hədisdə də eşq və məhəbbətdən bəhs edilmiş, məntiq və dəlillərdən heç vaxt bəhs edilməmişdir.

Əgər insan aşiq olarsa avtomatik Allaha itaət və ibadət yoluna gedəcək, itaət və qulluq yolunda bütün problem və çətinliklərə sinə gərəcəkdir.

İmam Mehdinin (ə) aşiqi oldunsa, onun əmri olan fəsad və pisliklərə qarşı da eynən mübarizə aparacaqsan. Bəli, eşq və məhəbbət bütün çətinlikləri asanlaşdırır.

İnsaf və cəsarətlə demək lazımdır ki, əmrlərinin, qadağalarının və bir sözlə proqramlarının hamısının əsası məhəbbət, şəfqət, sevgi və məhəbbət üzrə inşa edilən və dinin varlıq fəlsəfəsini məhəbbət və sevgi kimi səciyyələndirən bir din və inanc müharibə və qılınca söykənən əzazil bir din ola bilməz!

## 2 - MÜHARİBƏ MEYDANLARINDA İSLAMİ MƏRHƏMƏT

İslam dininin hər tərəfli və sonsuz mərhəmət və sevgisi müharibə meydanlarında da özünü əyani şəkildə göstərib. Daha açıq və aydın bir sözlə İslam dininin məhəbbət və sevgisi o qədər böyük və özünə daxildir ki, hətta qəzəb və nifrətin pik nöqtəsi olduğu müharibə meydanlarında da əks olunub. Döyüşlərdə bir sıra qayda-qanunlara riayət etməyi tələb etmiş və bunun üçün də qanunlar gətirmişdir. Hədislərdə müharibə qaydaları haqqında minlərlə rəvayət nəql olunmuşdur. Onlardan bir neçəsinə baxaq:

İmam Cəfər Sadiq buyurur (ə): Peyğəmbər (s) İslam ordusunu döyüş meydanlarına göndərmədən əvvəl əsgərləri yığardı, mücahidlərə bir sıra qaydaları xatırladardı. (Bu qayda və əmrə tabe olmayan əsgərləri şiddətlə cəzalandırırdı). Allahın Rəsulu (s) müsəlman əsgərlərə belə nəsihət edərdi: **"Müharibə meydanına hərəkət edin. Ancaq istək və arzularınızla deyil, əksinə, Allahın adını xatırlayaraq və onun rizası üçün, hər cür ilahi olmayan niyyətlərdən təmizlənmiş, İslamın əmr etdiyi şəkildə müharibə**

**qaydalarına riayət edərək təmiz və saf bir niyyətlə meydana gedin[18]".**

Uca İslam Peyğəmbəri (s) daha sonra əsgərlərinə müharibə qayda-qanunlarını belə aydınlaşdırır:

## 1-MÜHARİBƏDƏ XƏYANƏT ETMƏYİN!

Təfsirçilər bu cümlədəki məqsəd barədə üç fikir irəli sürmüşlər:

a)-Müharibə qənimətlərinə xəyanət etməyin. Yəni, qənimətlərdən hökumət və dövlətə düşən paya, əsgərlərə bölgü edilən və hər kəsin sahib olduğu hüquqlara xəyanət etməyin. Bu fikir ayə və hədislərlə də doğrulanmışdır.

b)-Müsəlman əsgərlər, qənimətdən başqa məsələlərdə də bir-birinə xəyanət etməməlidirlər.

c)-İslam əsgərləri bir-birinə xəyanət etmə haqlarına sahib olmadıqları üçün, düşmən əsgərlərinə də xəyanət etmə hüququna malik deyillər, əksinə, düşmənlərə qarşı igidcəsinə vuruşmalıdırlar.

## 2-DÜŞMƏN ƏSGƏRLƏRİNİN ÖLÜLƏRİNƏ HÖRMƏTSİZLİK ETMƏYİN!

Belə ki, düşmən əsgərlərini öldürdükdən sonra, onların qulaq, burun, əl və ayaq kimi bədən üzvlərini kəsib, onların cansız bədənlərini parçalamayın.

---

[18] Vesail-uş Şiə c.11, s.43

Bəzi hədislərdə Peyğəmbərin (s) belə buyurduğu nəql edilmişdir: **“Sizə hücum edən bir iti öldürdükdən sonra, onun leşini parçalamağa haqqınız yoxdur[19]”.**

## 3-ƏHDİNİZƏ SADİQ QALIN, ALDATMAYIN!

Düşmənlə barış və sülh imzalayanda o sazişə sadiq qalın. Verdiyiniz sözün arxasında dayanın. Həqiqi Müsəlman, düşməni ilə belə imzaladığı sazişə və aman istəyinə sadiq olandır.

**Həzrət Əli (ə) vəfalı və sadiq ordu komandanı Malik Əştərə göndərdiyi əhdnamədə buyurur: “Düşmənlə saziş etdikdə və ya onu tabe etdirdiyində əhdinə vəfalı ol. Əminliyinə verdiyin tabeçilik hüququna riayət et. Verdiyin sözlərə özünü qalxan et. Çünki arzularının fərqliliyinə, fikirlərinin dəyişməsinə, hissə-hissə olmasına baxmayaraq, inananların, Allahın vacib buyurduqlarından əhdlərə vəfalı olmaq kimi hörmət etdikləri, üzərində şiddətlə birləşdikləri başqa bir şey yoxdur[20]”.**

## 4-SAVAŞA QATILMAYAN ZƏİF, QOCA, QADIN VƏ UŞAQLARI ÖLDÜRMƏYİN!

İslamın müharibə anlayışına baxdıqda müharibəyə qatılmayan, qocalar, qadınlar və uşaqların qorunma mandatlarının olduğunu görürük. İslamın müharibə anlayışında müdafiəsiz insanları öldürmək yoxdur, qadınların, uşaqların və yaşlıların can təhlükəsizliyi daima zəmanət altında olmuşdur. İslam dini, igidcəsinə

---

[19] Biharül-ənvar, c.42, s.246-257

[20] [20] Nəhcül-bəlağə, məktub 53

döyüşməyi əmr edir. Ancaq İslam dinində qüsur axtaran qərbli insan haqları müdafiəçiləri və insani dəyərlərdən bəhs edən, özünü sivil mədəni göstərən ölkələr XX və XXI əsrdə belə törətdikləri qırğınlara, qətllərə və vəhşiliklərə görə, tarixə ən qəddar simasızlıqları ilə həkk olunacaqlar.

Dəyərli oxucular, Fələstin, Bosniya, İraq, Əfqanıstan, Çeçenistan, Azərbaycan, və adını sadalamadığımız bir çox ölkələrdə sözdə qərb mədəniyyətinin tərəfdarlarının müharibələrinə və soyqırımlarına indi də şahid oluruq. Görəsən onların döyüşlərdə böyükdən kiçiyə hər türlü insanın və təbiətdəki canlının heç birinə acımadan, aman vermədən öldürən müharibədir,- deyib öldürmələrinə nə ad qoymaq olar? İslamın müharibə anlayışı ilə bu hal müqayisə edilə bilərmi? Azad və vicdan sahibi hər kəs bunun cavabını yaxşı bilir.

## 5-MƏCBUR OLMADIQCA AĞACLARI KƏSMƏYİN!

Zikr edilən mərhəmət və şəfqət dolu bu nümunə hədisləri oxuyanda İslam qanunlarının nə qədər ölçülü, hikmətli olduğunu, rəhmət və sevgisinin hətta müharibə meydanlarında da ön plana çıxdığını görürük. Bu hədisləri mütaliə edərkən İslam dininin rəhmət və sevgisinin bitkilər və ağacları – cümlə təbiəti də əhatə etdiyini görmək olur.

Aləmlərə rəhmət olaraq göndərilən İslam Peyğəmbəri (s) əsgərlərinə məcbur olmadıqca, heç bir ağaca və tarlaya zərər verməmələrini əmr edib.

Düşünün: Hansı din və ideologiyanın qanunlarında bu qədər incə və dəqiq bir inanc və sevgiyə əsaslanan fikir var!

**6- SİZƏ PƏNAH GƏTİRƏNLƏRƏ QARŞI MƏRHƏMƏTLİ OLUN!**

İslam əsgərləri vəzifəsi nə olursa olsun, istər komandir, istər əsgər, ondan sığınacaq istəyən düşmən əsgərlərinə sığınma haqqı verməlidir. Müsəlmanlar, can təhlükəsizliyi verdikləri kəsləri döyüş meydanından kənara çıxarıb, gözəl əxlaq və şirin bir dillə İslamı ona bildirməlidir. O İslamı qəbul edəndə müsəlmanlar kimi olur və onların malik olduqları bütün hüquqlara malik olurlar. İslamı qəbul etmədiyi təqdirdə sağ-salim və təhlükəsizlik içində ölkəsinə və şəhərinə geri göndərilir. Müsəlmanlar heç bir şəkildə onları təhqir etmə hüququna malik deyillər. Əlbəttə, bu əmrləri tətbiq etmək, qanlı düşmənlə belə rəftar o qədər asan və sadə deyil. Bunu etmək güclü bir iman və səbr tələb edir. Bu səbəblə Peyğəmbərimiz (s) göstərişinin sonunda əsgərlərindən bu barədə Allahdan kömək istəmələrini tövsiyə edir.

İnsan haqları müdafiəçiləri və qulaqları kar edən sözdə mədəniyyət tərəfdarlarının müharibə qanunlarının hansı şərtlərinə tabe olmuşlar? Sözdə ədalət tərəfdarlarının beynəlxalq platformalarda hansı sözlərinin üstündə durduqlarını gördünüz?

İsrail-Fələstin müharibəsində bu qanunlar sayılmadığı kimi müdafiəsiz xalqın başlarına bombalar yağdırıb, evləri sökülmədimi? Xəstəxanalar bombalanıb xəstələr öldürülmədimi? Xalqın əsas dolanışıq mənbəyi olan zeytun ağacları, tarlalar yandırılıb, yıxılmadımı? Xəstə, yaşlı, uşaq, qadın heç acımadan öldürülmədimi?

Bütün bu cinayət və zülmlərə tamaşaçı qalan insan haqları müdafiəçiləri İsraili qınamaq əvəzinə, əksinə, onları dəstəkləyərək Müsəlmanları barbar döyüşçü və kobudluqda günahlandırdılar.

## 3- CANLILARA QARŞI İSLAMİ RƏHMƏT

İslam dininin rəhmət və sevgisi yalnız insanları əhatə etmir. O, bütün canlıları da rəhmət və sevgi çətiri altına almışdır. Bu səbəbdən İslami təlimlər və hədislərdə heyvan haqları ilə əlaqəli Peyğəmbər və onun 12 haqq xəlifəsi minlərlə hədis nəql etmişdir[21].

Rəhmət və sevgi Peyğəmbəri (s) altı əsas başlıq altında heyvan haqları mövzusunda belə buyurur:

1-Səfərdən qayıdanda ilk öncə heyvanın otunu və suyunu ver, onu suladıqdan sonra, öz yeməyinə və içməyinə bax.

2-Səfər boyu suya çatanda hər dəfə heyvanı suyun yanına apar, susayıbsa su içsin.

3-Mindiyin heyvanın sürətli getməsini istədikdə, onun başına və sifətinə şallaqla vurma. Çünki heyvanlar da Allahı zikr etməkdədir. Allahı zikr edəni qamçılamaq əxlaqi və şəri cəhətdən düzgün deyildir.

4-Müharibə meydanı deyilsə, boşuna dayanmış belə olsa, bir heyvanın üzərinə oturma.

---

[21] Bu məsələ haqqında Vesailu-ş Şiə adlı hədis kitabında heyvan hüquqlarından (Ahkamud-Devvab) geniş bəhs edilmişdir.

(Müqəddəs İslam dininin mərhəməti o qədər geniş və tamdır ki, uca İslam dini bir insanın kefinə görə heyvana minib ona əziyyət etməsinə qətiyyən imkan verməz.)

5-Heyvan gücündən artıq yükləmə. Çünki onun da yük daşıma tutumu məhduddur. Gücündən artığını ona yükləmək Allah dərgahında günahdır.

6-Heyvanınla getdiyin uzun səfərlərdə onun da məhdud bir gücə malik olduğunu nəzərə al.

Əziz oxucular, bu qayda və qanunlar İslamın sevgi və mərhəmətə söykənən zərif və incə əmrləridir. Təəssüf ki, bu qanunların bir çoxu günümüz dünyasında tətbiq olunmur. Əksinə bir çox insanlar həyat bəxş edən bu qanun və qaydaları heç düşünməmişlər.

XXI əsrdə müasirlikdən və sevgidən dəm vuran kapitalist ölkələrində matadorların nizələrlə amansızlıqla buğalara hücum edib, onları öldürməsi ayaqda alqışlanır. Arenanı dolduran və ekran qarşısında bu səhnələri zövqlə izləyən insanlar İslamın sevgi anlayışını hansı haqla tənqid edirlər? Uca İslam dini kiminsə zövqü və əyləncəsi üçün heç bir canlının həyatını heçə saymır və bunu edən kim olursa-olsun ona böyük günah işlətdiyini bildirir.

Rəhmət və sevgi dini İslam heyvan haqlarının ən incə nöqtəsinə qədər əmr və qaydalar qoymuşdur.

Soruşuram sizlərdən, heyvan haqlarına bu qədər diqqət və əhəmiyyət verən bir din, zorakılıq və qəddarlıq dini ola bilərmi?

Hz. Məhəmməd (s) yüklü bir dəvənin ayağının da bağlı olduğunu gördükdə belə buyurur: **"Bu dəvənin sahibi kimdir? Ona deyin ki, özünü (bu dəvənin şikayəti üçün) qiyamət hesabına hazırlasın[22]".**

İslam Peyğəmbərinin (s) mərhəmət və məhəbbətinin nə qədər böyük olduğuna baxın. Peyğəmbərimiz (s) bir heyvanın üzünə nişanə (əlamət) qoyulduğunu görəndə belə buyurdu: **"Heyvanların sifətini dağlayaraq iz qoymağı və heyvanların üzünə vurmağı lənətlədiyimi eşitmədinizmi?[23]".**

İslam dini istər insan olsun, istər heyvan hər hansı bir canlının haqsız və səbəbsiz yerə öldürülməsinə hər zaman qarşı çıxmışdır.

**"Kim bir sərçəni səbəbsiz yerə öldürsə, o sərçə qiyamət günü:- "Ya rəbb, o məni heç bir səbəbi olmadan öldürdü",- deyərək qatilindən şikayətçi olacaq[24]".**

İbn Abbas, Allahın Rəsulunun (s) insanları zərərsiz olan bütün canlıları öldürməkdən çəkindirdiyini nəql edir[25].

Bir heyvana rəhm etmək insanın cənnətə getməsinə səbəb ola bilər. Necə ki, uca İslam Peyğəmbəri (s) belə buyurur: "**Günahkar bir qadın, quyu başında bir itin susuzluqdan can verdiyini gördü. Qadın ayaqqabısına şərfini bağlayıb quyudan su çıxarıb**

---

[22] Biharül-ənvar, c. 7, s. 276
[23] Mizanul- Hikmət, c.3, s.1346
[24] Mizanul- Hikmət, c.3, s.1346
[25] Mizanul- Hikmət, c.3, s.1348

**ölmək üzrə olan itə su verdi və onu ölümdən xilas etdi. Allah da iti xilas etdiyi üçün bu günahkar qadını bağışlayıb[26]".**

Bir itə acıyıb susuzluqdan xilas etdiyinə görə günahkar bir qadını bağışlayan belə Uca Din, ona əməl edən inanc sahibini də kömək və xidməti sonrası mükafatsız buraxarmı heç?

Belə mərhəmət və sevgi dolu bir din bəşəriyyətə xidməti, Allaha xidmət kimi buyurmuşdur.

## 4- HƏR KƏSİ ƏHATƏ EDƏN MÜSƏLMANLARIN DUALARI

Allah yanında bütün zamanların ən müqəddəsi və bərəkətlisi olan Ramazan ayında Müsəlmanların bütün məscid və ibadətgahlarında fərz namazları əda etdikdən sonra oxuduqları dua, İslam dininin mərhəmət və sevgi dini olduğunun digər bir göstəricisidir.

Müsəlmanlar hər zaman müsəlman və ya qeyri-müsəlman ayırd etmədən bütün insanların problem və çətinlikləri üçün dua edirlər.

İslam dini əzazil və zorakılıq dinidir deyən, sözdə təhsilli və dünyagörmüş cahillər müsəlmanların bu duasını heç oxumayıblarmı?

**"Allahım, qəbir əhlini sevindir.**
**Allahım, bütün kasıbları zənginləşdir.**

[26] Mizanul- Hikmət, c.3, s.1347

**Allahım, bütün acları doydur.**

**Allahım, bütün çılpaqları geyindir.**

**Allahım, sıxıntısı olanları sıxıntıdan qurtar.**

**Allahım, bütün qəribləri, köçkünləri vətənlərinə geri qaytar.**

**Allahım, bütün əsirləri əsirlikdən xilas et[27]".**

Dəyərli oxucular Peyğəmbərimizin (s) bu duası o qədər açıq-aydın sözlə ifadə olunub ki, heç bir şərhə və izaha yer qoymur. Peyğəmbərin (s) bu duasına qoşulan cəmi müsəlmanlar ən müqəddəs aylarda, günlərdə, gecələrdə və saatlarda din, dil, irq və rəng ayrı-seçkiliyi qoymadan bütün bəşəriyyətə dua edərək Allaha əl açırlar.

Belə bir din və inanc necə zorakılıq dini ola bilər?

---

[27] Quran və Əhli-Beyt Mənbəli Dualar, s.274

## ÜÇÜNCÜ HİSSƏ

## PEYĞƏMBƏR, ONUN XƏLİFƏLƏRİ VƏ DİN RƏHBƏRLƏRİNƏ AİD SEVGİ VƏ RƏHMƏT ÖRNƏKLƏRİ

Peyğəmbər və din rəhbərlərinin real yaşam tərzlərini incələyərkən, onların başdan-ayağa rəhmət, sevgi, əfv və mərhəmətlə dolub daşdığını görürük. Bu bölümdə Onların yaşayışlarından örnək olaraq bir neçə misal göstərcəyik.

### 1-PEYĞƏMBƏRİN (S) ƏMƏLDƏ MƏRHƏMƏTİ

Aləmlərə rəhmət olaraq göndərilən sevgili Peyğəmbərimizin (s) ürəkləri nifrət dolu azğın düşmənlərinə qarşı əməli mövqeyini sözdə çağdaş, modern, mədəniyyət tərəfdarı və insan haqları müdafiəçilərinin ikinci dünya müharibəsində mövqe və əməlləri ilə müqayisə edək.

Əziz İslam Peyğəmbəri (s), hicrətdən 13 il əvvəl Məkkədə müxtəlif işgəncə və təzyiqlərə məruz qaldı. Yoluna daşlar-tikanlar töküldü, haqqında sehrbaz dedilər, iqtisadi, ticari işlərinə embarqo qoyuldu. Maddi və mənəvi təzyiqlər gördü. Bir sözlə, Peyğəmbərimiz (s) ən amansız və mərhəmətsiz Məkkə müşrikləri düşmənləri ilə bir arada yaşamaqda idi. Allah Rəsulu (s) bu işgəncələr və müsibətlərdən sonra nəhayət, inadkar və daş qəlbli düşmənlərinə qalib gələrək Məkkəni fəth etdi.

Allah Rəsulu (s): “Gedin, hamınız azadsınız”,- kimi mənalı bir cümlə ilə düşmənlərini əfv edərək onları İslamın rəhmət və məğfirət dairəsinə aldı. Hətta, bu əsnada əsgərlərindən birinin bayrağı əlinə alaraq:- "Bu gün qisas günüdür”,-deyə şüarlar

atdığını görəndə, bu çağırışdan son dərəcə narahat oldu və dərhal bayrağı o əsgərdən alıb o şüarı: - "Bu gün rəhmət və mərhəmət günüdür"!- deyərək xalqa səsləndi.

İkinci dünya müharibəsindən sonra müttəfiq qüvvələr Berlinə girəndə bələkdəki kiçik uşaqları küçə ortasında havaya atıb havadaca güllələyirdilər. Buna bənzər minlərlə cinayətlər qara ləkə olaraq tarixi qeydlərə keçmişdir. Bugünkü rəhmsiz və qəddar canilərin övladları da Fələstin, Əfqanıstan, İraq, Bosniya və daha bir çox ölkələrdə oxşar cinayətləri törədirlər ki, qələm o zalımların cinayətlərini yazıb bitirməkdə acizdir. Qadınlara tətbiq olunan alçaqcasına aksiyalardan, bələkdəki müdafiəsiz uşaqlara, yeriməkdə aciz yaşlı insanlara edilən bu cinayətləri danışmaqdan insan utanır.

İndi soruşuruq: Zorakılıq və nəzakətsizlik tərəfdarı kimdir?- deyə sualımızı bu dəfə qərbin mədəniyyət və insan haqları müdafiəçilərinə yönəldirik.

## 2-HZ. ƏLİNİN (Ə) QATİLİNƏ MƏRHƏMƏTİ

İslam xəlifəsi Həzrət Əlinin (ə) qatili ilə olan münasibəti, ona ədalətli davranışı İslami mərhəmət və sevginin digər bir canlı nümunəsidir.

Həzrət Əlinin (ə) İslami mərhəməti, canını almaq istəyən qatilini, başına qılınc zərbəsi vuran İbn Mülcəm kimi caniləri də əhatə etmişdir.

İslamın şiddət və savaş dini olduğunu iddia edən insan haqları müdafiəçiləri Həzrət Əlinin (ə) qatili ilə olan dialoqunu heç eşidib, duymadılarmı? Eşitmədilərsə, açıb oxusunlar!

Həzrət Əli (ə) oğlu İmam Həsənə (ə) buyurur:

"Oğlum! Mənim qatilim yalnız İbn Mülcəmdir. Çəkinin o şeydən ki, məndən sonra bir qrup, intiqam adına qılınclarını çəkib günahsız və müdafiəsiz insanları öldürməyə cəhd etsinlər! Bunlar Həzrət Əlinin (ə) qatilinə yardım etdilər - deyib qanlarını tökməsinlər. İlahi şüarları şəxsi intiqama alət etməsinlər.

Əzizlərim! Mənə verdiyiniz bu yeməklərdən qatilimə də verin.

Gözümün nurları! Əgər mən sağalıb ölməsəm özüm ona nə edəcəyimi qərar verəcəyəm. Əgər bu zərbə ilə haqqın rəhmətinə qovuşsam, sizlər bunun qisası haqqına sahib olarsınız, onun mənə vurduğu bir qılınc zərbəsi kimi siz də ona bir qılınc zərbəsindən artıq vurmazsınız.

Peyğəmbər övladları! Onu öldürəndən sonra bədənini parçalamayın".

Əziz oxucular bu əmr və nəsihətlər Həzrət Əlinin (ə) şəhadət yatağında olanda qatili haqqında qanunlarıdır.

Sizlər indiyə qədər dünya tarixində Həzrət Əli (ə) kimi qüdrət əlindəykən belə, qatilinə mərhəmət edən, onun vəziyyətini nəzərə alıb, haqqını müdafiə edən bir dövlət xadimi və ya bir rəhbər görüb, eşitdinizmi?

Xəlifəsi və lideri bu qədər mərhəmətli və şəfqətli olan bir din şiddət, qılınc və müharibə tərəfdarı ola bilməz!!!

## HZ. ƏLİNİN (Ə) ƏHLİ-KİTABA QARŞI MÜNASİBƏTİ

Həzrət Əlinin (ə) hakimiyyəti dövründə İslam torpaqlarında yaşayan Əhli-Kitab sayca azlıqda olmalarına baxmayaraq bu böyük şəxsiyyət, ümumbəşəri ədalət anlayışı çərçivəsində müsəlmanların hüquqlarını qoruyub saxladığı kimi, onların hüquqlarını da qüsursuz bir şəkildə qorumuş və müdafiə etmişdir.

Həzrət Əlinin (ə) İslam torpaqlarında yaşayan Əhli-Kitaba örnək olan gözəl rəftarından bir neçə nümunə verməklə kifayətlənirik.

Ümid edirik ki, Həzrətin bu əməli bütün bəşəriyyət və İslamı şiddət, qılınc və əzazil din olaraq görənlərə ibrət dərsi olar.

### 1-HZ. ƏLİNİN (Ə) XRİSTİAN YOL YOLDAŞI

Şiə təriqətinin dörd böyük əyani kitabından biri olan "Üsulu-kafi"də Mesade bin Sadekanın İmam Cəfər Sadiqin (ə) ataları haqqında dediklərini belə nəql etmişdir: "Əmirəlmöminin Əli b. Əbu Talib (ə) zimmi bir kafir ilə yol yoldaşlığı etdi. Zimmi: "Hara gedirsən, ey Allahın qulu"? Deyə soruşdu.

Həzrət: "Küfəyə gedirəm",- dedi. Yolun bir yerində zimmi başqa bir yola çıxanda Əmirəlmömin Əli b. Əbu Talib (ə) də onunla birlikdə o yola getdi. Zimmi: "Sən Küfəyə getmək istədiyini demədinmi bəs"?- dedi.

İmam (ə): "Bəli", -deyincə, Zimmi: "Ancaq gedəcəyin yol bura deyil, məqsədindən qayıtdın" - dedi.

İmam (ə): "Bəli, bilirəm", - dedi.

Zimmi: “O halda niyə mənimlə gələrək gedəcəyin istiqamətdən uzaqlaşmısan?”,- deyə soruşdu.

Əmirəlmömin Əli bin Əbu Talib (ə) belə buyurdu: “Bu, gözəl dostluğun bir gərəyidir. İnsan, yol yoldaşından ayrılanda onu yola salmaq üçün onu bir az müşayiət etməlidir. Peyğəmbərimiz (s) belə etməyimizi bizə əmr etdi”.

Zimmi: -O, sizə belə etməyinizimi əmr etdi?- dedi.

İmam (ə): -Bəli, - dedi.

Zimmi: “İndi anlayıram ki ona tabe olanlar, onun bu yüksək və fəzilətli davranışlarından dolayı ona tabe olmuşlar”, - dedi və əlavə etdi: “Mən, səni dinin üzərinə olduğuma dair şahid tuturam”. Zimmi, Əmirəlmöminin Əli bin Əbu Talib (ə) ilə birlikdə qayıtdı və o, həzrəti tanıyan gündən müsəlman oldu[28]”.

## 2-HZ. ƏLİNİN (Ə) BİR XRİSTİANA TƏQAÜD TƏYİN ETMƏSİ

Həzrət Əli (ə) xilafəti dövründə kor və yaşlı kasıb bir xristian yoxsulluqdan dolayı küçə künclərində dilənirdi. Müsəlmanlar onun bu vəziyyətinə çox acıyırdı. Bu səbəbdən ona sədəqə və yardım edirdilər. Yaşlı və kor xristian dolanışığını dilənərək təmin edirdi. Bu kasıb xristianın diləndiyini görən İmam Əli (ə) hakimiyyətini düşünüb belə vəziyyətin olmasından kədər duydu və ilahi ədaləti tətbiq etmək üçün yanındakılardan o yaşlı adamın kim olduğunu soruşdu. Onu tanıyanlar: “Ya Əli! Bu adam gözləri

[28] Üsulu Kafi, c.2, s.1077, h. 3764 (Türkcəsi)

görməyən kasıb bir xristiandır"- dedilər. Həzrət Əli (ə) onların bu cavabından olduqca narahatlıq duydu və kədərli bir şəkildə belə buyurdu: "**Zaman gəncliyini və sağlamlığını ondan almış və onu bu vəziyyətə salmış. İndi isə o sağlamlığını və gəncliyini itirmişdir. Bu gündən İslam hökumətinin onun xərclərini öz üzərinə götürmə vaxtıdır. Ey büdcə cavabdehi! Bunun bütün xərclərini xəzinədən ödəyin ki, bundan sonra rahat bir şəkildə həyatını davam etdirsin[29]".**

Bu hadisəni nəql etdikdən sonra, artıq heç bir şərhə ehtiyac duymuruq. Çünki həzrətin bu əməli İslam və İslam xəlifəsinin insanlara verdiyi dəyəri və İslamda irq, dil və din ayrı-seçkiliyin olmadığını açıq bir şəkildə nümayiş etdirir.

## 3-HZ. ƏLİNİN (Ə) MƏHKƏMƏ QARŞISINDAKI ƏDALƏTİ

Həzrət Əli (ə) dünya yaradılışından bu yana görünməmiş və bənzərsiz bir ədalətə və təvazökarlığa malik idi. Hətta özü hakimiyyət başında olduğu zaman da yüz faiz haqlı olduğu bir məsələdə Müsəlman olmayan bir şəxslə hakim qarşısına çıxır. İmam Əlinin (ə) bu hərəkəti insanlığa və qanunlara hörməti və ədaləti göstərir. Belə ki, bu davranışların bəşəriyyət tarixində bənzəri yoxdur.

Sıffın müharibəsi zamanı İmam Əlinin (a) qalxanı itmişdi. Xristian və ya yəhudinin biri onu tapıb və həzrətin qalxanını istifadə edirdi. Həzrət Əli (ə) qalxanını başqasının əlində görəndə onun özünə aid olduğunu söylədi. Ancaq o şəxs qalxanın öz malı olduğunu dedi. Həzrət Əli (ə) özü təyin etdiyi qaziyə onu şikayət

[29] Vesail-uş Şiə c.11, s.49

etdi. Şikayət üzərinə hadisə məhkəməyə intiqal etdi. Həzrət Əli (ə), qeyri-müsəlman olan o şəxslə məhkəməyə çıxdı. Qeyri-müsəlman məhkəmədə qalxanın şəxsi malı olduğunu iddia etdi. Qalxan onun əlində olduğu üçün də qazi qeyri-müsəlmanın xeyrinə hökm etdi. Əslində qeyri-müsəlman qalxanın əsl sahibinin İmam Əli (ə) olduğunu çox yaxşı bilirdi. Ancaq məhkəmədə haqq-ədalət timsalı o böyük şəxsiyyətin məhkəmə qarşısında ədalətli davranışına şahid olduqda İslam dininin haqq din olduğunu anlayıb qəbul etdi. Həzrətin ədalətindən təsirlənərək İslamı seçdi və İmam Əlinin (ə) vəfalı və sadiq dostlarından oldu. Bu səmimiyyət və vəfasını Siffeyn müharibəsinə qoşularaq sübut etdi[30].

#### 4- ƏLİ (Ə) QEYRİ MÜSƏLMANA EDİLƏN HAQSIZLIĞA QARŞI

Siffeyn Müharibəsindən sonra Müaviyə bir çox İslam ölkəsinə hücum edərək onları işğal etdi. Şəhərləri talayıb, sakinlərini qətlə yetirdi. Vaxtilə Müaviyə Süfyan bin Avf Amiri hüzuruna çağırdı və ona belə dedi: Güclü bir ordu ilə o şəhərə doğru hərəkət et. Sonra Heyt, Anbar və Mədalın şəhərlərinə hücum et, mallarını tala, sonra da Dəməşqə geri qayıt. Amma Kufəyə yaxınlaşma! Çünki Anbar və Mədainə hücum etmən Kufəyə hucumun etmək kimidir. Ancaq bu hərəkətin Kufəliləri qorxudar və dostlarımızı da sevindirmiş olar. Səfərin zamanı bizi qəbul etməyənlərlə qarşılaşsan onları öldür, mallarını talan et. Yol üstü gördüyün qəsəbə və kəndləri oda ver və mallarına əl qoy!

---

[30] Menakib-u İbni Şerh-i Aşub, c. 2, s. 105, el-kamil fil-Tarix, c. 3, s. 401, el-Garat, c. 1, s. 114. Ahbarul-Kuzat, c. 2, s. 200, Biharül-ənvar, 41, 56 c

Həbib bin. Saf belə deyir: Mən və Eşas bin Hisan Bəkiri Anbar ordusundaydıq. Süfyan bin Avf Amiri bizə hücum etdi. Komandirimiz onlarla çətin bir toqquşmaya girdi. Onlar güclü və təchizatlı bir orduya sahib olduqları üçün çox çətin vəziyyətdə qaldıq. Bu zaman komandirimiz atından enərək bu ayəni oxudu:

مِنَ الْمُؤْمِنِينَ رِجَالٌ صَدَقُوا مَا عَاهَدُوا اللَّهَ عَلَيْهِ فَمِنْهُم مَّن قَضَى نَحْبَهُ وَمِنْهُم مَّن يَنتَظِرُ وَمَا بَدَّلُوا تَبْدِيلًا

"Möminlər içərisində elələri də vardır ki, Allaha etdikləri əhdə sadiq olarlar. Onlardan kimisi (bu yolda) şəhid olmuş, kimisi də (şəhid olmasını) gözləyir. Onlar (verdikləri sözü) əsla dəyişməzlər[31]".

Sonra belə dedi: "Allaha qovuşmaq üçün canlarını fəda etmək istəyənlər, biz Şam ordusu ilə müharibə halındaykən şəhəri tərk edib canlarını qurtara bilərlər. Ancaq bizimlə qalıb döyüşənlərin mükafatını Allah verəcək".

Onlar komandirlərini tək qoydular. Geriyə yalnız otuz nəfər qaldı. Qalan otuz nəfər son ana qədər düşmənlə döyüşərək şəhadət şərbətini içdilər. Biz də bu müharibədə məğlubiyyətə uğradıq və geri qayıtdıq.

İbrahim bin Məhəmməd bin Səid bin Hilali Şakafi belə deyir: Qeyri-müsəlman bir adam Həzrət Əlinin (ə) hüzuruna gələrək Anbar şəhərində baş verənləri həzrətə xəbər verdi[32]. Həzrət Əli (ə)

---

[31] Əhzab – 23
[32] Şərhi İbn Əbil Hədid, c.2, s.88

bu xəbəri eşidəndə çox əsəbiləşdi. Hirsindən Kufənin xaricinə çıxdı və Nuheylə adlanan yerə doğru hərəkət etdi. Orada bir təpənin üstünə çıxdı, köməkçilərini qınayaraq və cihada dəvət edən atəşli bir xütbə oxudu. Həzrət əshabələrinə belə buyurdu:

**"Həmçinin mənə belə bir xəbər gəldi ki, onların (Müaviyənin) bir adamı müsəlman bir qadınla, zimmi sayılan bir kafir qadının evinə girmiş və onların xal-xal bilərziklərini, boyunbağı və sırğalarını almış, onlar isə ağlamaqdan başqa bir şey edə bilməmişlər. Düşmən bol miqdarda qənimətlə geri dönmüş, onlardan heç biri yaralanmayıb və heç birinin qanı tökülməyib. Əgər Müsəlman bir kimsə bu hadisəni eşidib qəm-kədərdən ölərsə əsla qınanmaz. Hətta mənə görə ölməsi daha yaxşıdır[33]".**

Ey insan haqları müdafiəçiləri! Diqqət edirsinizmi? Müsəlman və qeyri-müsəlmana haqsızlıq edilmiş, onların bəzəkləri və bəzək əşyaları əllərindən alınmış, lakin Həzrət Əli (ə) görün nə qədər dərindən kədərlənmişdi. İslam hakimiyyətinin başçısının qeyri-müsəlman bir şəxsə bu qədər hörmət və sevgini düşünə bilirsinizmi? Bu Əhli-Beyt (ə) məktəbinin insanlara baxışıdır. Bu bərabərlik anlayışı da, insanları sevmək də İmam Əli (ə) məktəbindən miras qalmışdır.

[33] Nəhcul-Bəlağə, Xütbə, 27

## 5-HZ. ƏLİ (Ə) FARS ƏYALƏTİNİN QUBERNATORUNU NİYƏ TƏNBEH EDİR?

Həzrət Əlinin (ə) Fars Vəlisi Ömər bin Əbi Əsləm Ərhəb, Fars Zərdüştlərinə pis davranırdı. Bu İslamın qəbul etmədiyi iyrənc bir hərəkətdi. İmam Əli (ə) bu hadisəni eşidəndə valisinə məktub yazaraq onu şiddətlə qınadı:

**"Sənin valiliyindəki fermerlər və kəndlilər, onlara sərt davrandığını, qatı və qəlbqırıcı olduğunu, onları alçaldıb haqsızlıq etdiyini mənə şikayət etdilər. Dinlədim və hər nə qədər müşrik (müsəlman olmadıqları üçün) olduqları üçün, onları dost tutmağa layiq olmasalar da, ancaq verdikləri əhdə görə uzaqlaşdırılmaları, zülm və təzyiq ilə idarə edilmələri də düzgün deyildi. O halda Allahın izni ilə, bir tərəfi şiddətlə hörülmüş olan yumşaqlıq örtüsüylə onları ört. Lazım gəlsə, sərt rəftar etsən də, bir tərəfdən də mərhəmətli ol. Nə özünə çox yaxınlaşdır, nə də çox uzaqlaşdır[34]".**

Hörmətli oxucular! İslam çətiri altında yaşayan milli azlıqlar Müsəlmanlarla bərabər hüquqlara malikdirlər. İslam dini öz damı altında yaşayan qeyri-müsəlmana edilən haqsızlıq və hörmətsizliyə görə öz qubernatorunu danlayacaq qədər onların hüquqlarını müdafiə edir. Həzrət Əlinin (ə) ilahi ədaləti zamanı hər hansı bir müsəlman və ya qeyri-müsəlmana haqsızlıq edildiyi nə görünmüş, nə də eşidilmişdir. Buna uyğun bir başqa nümunə hansısa bir mənbədə qeydə alınmamışdır.

---

[34] Nəhcul-Bəlağə, Məktub, 19

## DÖRDÜNCÜ HİSSƏ

# ETİRAZLAR VƏ SUALLAR

İslamın mərhəmət və sevgi dini olduğunu Qurani-Kərimi, hədisləri, Peyğəmbər və imamların yaşayışını mütaliə etdikdən sonra öyrənmiş olduq. İslam dininin kin, müharibə, qılınc, qaba və kobud bir din olmadığını əksinə, mərhəmət, sevgi və məhəbbət dini və insanın yaradılışına tamamilə uyğun olduğunu gördük.

Bu qədər aşkar dəlil və bəyanatlardan sonra haqq və həqiqəti görməzlikdən gəlib cəmiyyət və bəşəriyyətin səadət və rifahı üçün göndərilən ilahi qanunlara etirazlar edən adını mədəniyyət və insan haqları müdafiəçisi qoyan bəzi İslam düşmənlərinin bəhanə və suallarını bu bölməmizdə cavablandıracaq və örnəklərlə sübut edəcəyik.

## 1-İSLAMDA QİSAS QANUNU

İslam, nə üçün qisas qanununu təsdiq edir?

Qisas bir növ kin deyilmi?

Bir insanı öldürmək o insan günahkar və xətalı olsa belə ona qarşı kin sayılmazmı?

Cavab: Bu sualın cavabında bir neçə məsələyə diqqət etsək, məsələ çox dəqiq və gözəl bir şəkildə başa düşülər.

a) Uca Allah Bəqərə surəsinin 178-ci ayəsində qisas haqqında belə nəql edir:

فَمَنْ عُفِيَ لَهُ مِنْ أَخِيهِ شَيْءٌ فَات

“Kimə din qardaşı tərəfindən bir şey (qisas haqqı) bağışlansa, daha yaxşı olar[35]”.

Yəni qisas vacib olmadığı kimi müstəhəb və sünnə də deyil. Lakin qatil və canilərin cinayətlərinin təkrarlanmaması üçün qisas haqqı mərhumun vəlisinə verilmişdir. Mərhumun himayəçisi istəsə qisas edər, istəsə də bağışlayar. Diqqət etdinizsə, qisas, nə vacib bir əməldir, nə də müstəhəb.

b) Bəqərə surəsi 179-cu ayəsində Allah Təala qisasın fəlsəfəsini bizlərə açıq və dəqiq bir şəkildə heç bir şərh və izahata ehtiyac qoymadan belə anladır:

وَلَكُمْ فِي الْقِصَاصِ حَيَاةٌ يَاْ أُولِيْ الأَلْبَابِ لَعَلَّكُمْ تَتَّقُ

“Ey ağıl sahibləri, bu qisas (qisas hökmü) sizin üçün həyat deməkdir. Ola bilsin ki, (bununla) pis əməldən (qətldən) çəkinəsiniz[36]”.

Ayədən də göründüyü kimi, qisasda kin, düşmənçilik və intiqam hissi yoxdur. Yalnız ictimai təhlükəsizliyi təmin etmək, insanların can və mallarını təminat altına almağa yönəlik tədbirdir.

Qatil və insanların canlarına və mallarına hörmət etməyən bir canini İslamın mərhəmət və sevgi çətiri altına almaq, onu öz halına buraxmaq, onu bu sevgi və mərhəməti sui-istifadə etməyə sövq

[35] Bəqərə - 178
[36] Bəqərə - 179

etməklə yanaşı, qurdun dişlərini bülövləyərək qoyunları ona yem etmək kimidir. Əksinə bu, haqsızlıq və zülmün böyüməsidir.

Cəmiyyətdə, qisasdan başqa islah yolu olmadığı təqdirdə cani və qatillərin pislikləri qarşısına bu formada keçmək kin və nifrətmi sayılmalıdır?

Əksinə, cəmiyyətin, insanların rahatlıq və əmin-amanlığı üçün cinayət və qatillərin önünə keçib onları cəzalandırmaq rəhmət və məhəbbətin özüdür.

Ancaq bu kimi cani və qatillərə qisas tətbiq edib, ilahi cəzaya məhkum ediləndə insan haqları təşkilatlarının müdafiəçiləri bunun kin olduğunu deyərək səslərini yüksəldirlər. Dinə və müqəddəslərə yazılı və şifahi təhqirlər yağdıranlar, Bosniya, Fələstin, İraq, Əfqanıstan və daha bir çox ölkədə günahsız, müdafiəsiz, qadın, uşaq demədən onları vəhşicəsinə qətlə yetirənlər barəsində sanki gözləri kor, qulaqları kar olub. Şüarları insan sevgisi olan sözdə mədəniyyət tərəfdarlarının bu qədər səssiz qalmaları və heç bir şəkildə reaksiya göstərməməsi son dərəcə düşündürücüdür. Buraxın etiraz etmələrini, halbuki cinayəti pisləyənlərə qarşı müxtəlif təzyiqlər də tətbiq edirlər.

Həkim bütün müalicə və zəhmətlərindən sonra xəstənin canını qurtarmaq üçün onun əlini və ya ayağını kəsəndə bunun adı kin və zorakılıqmı olur? Həkim həqiqətdə xəstəyi xilas etmək üçün o xəstəlik tutmuş üzvü kəsməklə rəhmət və sevgisini xəstəyə göstərmişdir. Heç bir ağıllı insan və insaflı bir insan həkimi bu əməliyyatından dolayı onu pisləyib kinlə ittiham edərmi?

Sivil cəmiyyətdə əmin-amanlıq, asayiş və qayda-qanunları qorumaq üçün xəstə təfəkkürlü, zərərli insanların islah edilməsi hamiya qarşı rəhmət və sevginin sərgilənməsi deyilmi? Başqa formada, həkimin kəsib atdığı əl və ayaq bədənin digər azalarını qorumaq və müalicə etməkdisə, qisas da cəmiyyətin əmin-amanlıq və etibarlılığını təmin etmək üçün istifadə edilən bir müalicə üsuludur. Bu məntiq və vicdanla yola çıxanda qisasın sərtlik və zorakılıq olmadığı, əksinə, rəhmət və sevginin sahələrindən biri olduğu görünür.

Dünyada heç bir ağıl və vicdan sahibi cəmiyyətin əmin-amanlıq və təhlükəsizliyini təhdid edən, insanların malına və namusuna heç bir hörməti olmayan birinin əlini-qolunu yelləyərək istədiyi hər bir işi icra etməsinə razı olmaz.

## 2-İSLAMDA CƏZALAR VƏ ONUN ÖLÇÜLƏRİ

- İslamda cəzalar İslamın mərhəmət və sevgisi ilə necə uyğun gəldiyini heç düşündünüzmü?

- Hər hansı bir günah edənə 100 qırmanc vurmaq sərtlik və kobudluqmu sayılmalıdır?

- Şəhvət və nəfsinə qapılıb zina edənlərin daşlanması İslamda rəhmətin azalmasınamı işarədir?

- Oğurluq edənlərin əlinin kəsilməsi nədən İslam hökmlərində özünə yer tapmışdır?

Cavab: Bu və digər sualların cavabını İslam hökmlərinin fəlsəfəsi və səbəblərinin izahı yöndən aradıqda bunların bir ilahi

cəzalar sistemi olaraq qəbul ediləcəyini əminliklə söyləyə bilərik. Çünki istənilən halda cinayət varsa, cəzası da olmalıdır.

## a) İLAHİ HÖKMLƏRİN FƏLSƏFƏSİ

İlahi hökmlərin fəlsəfəsi haqqında nəql olunan hədislər bu mövzudakı düşüncələrimizə daha geniş yollar açır.

Rəsulu Əkrəm (s) belə buyurur: "İlahi cəzaların tətbiqi qırx gün yağan yağışdan daha xeyirlidir[37]".

Diqqət etsəniz peyğəmbər bu hədisində ilahi hökmləri Allahın rəhmət yağışından da üstün bir olaya bənzətmişdir. Hədisin mənası isə bunu deməyə əsas verir: - Yağış, Allahın yer əhlinə göndərdiyi ilahi rəhmət olduğu kimi[38], ilahi cəzalar da ideal və etibarlı bir cəmiyyətin mövcud olması və mənfəəti üçün rəhmətdir.

İlahi cəzaların cəmiyyətdə tətbiqi, yağış misalı cəmiyyəti bütün eybəcərliklər və könülləri məyus edən mənfi çamurdan təmizləyir. Məsələn: İslam dini, bir cəmiyyət və şəhərin təhlükəsizliyini təhdid edib xalqın malına, canına və namusuna təcavüz edən birini "muharib" (döyüşçü) adlandıraraq haqqında ilahi cəza tətbiq edir və beləliklə, cəmiyyətin əminiyyət və asayişini təhdid edən bu zərərli ünsürü yuyub təmizləyir. Müqəddəs İslam dini, mənafe və maraqları uğrunda narkotik maddələr istehsal edib, sataraq bir cəmiyyəti, ölkəni fəsad və pisliyə sürükləyirsə "Mufsidun fil Ərz"

---

[37] Vesail-us Şiə c.18, s.308

[38] Kəhf Surəsi 16-cı ayədə yağış, ilahi bir rəhmət olaraq tanınmışdır.

(yer üzündə fəsad edən) onlar haqqında ilahi cəzaların tətbiq olunması hökmü-şərt deyilmi? İslam dini, ilahi cəzaları tətbiq edərək cəmiyyəti və ölkəni təhdid edən bu zərərli ünsürləri təmizləməkdə əvəzsiz vasitədir. Rəhmət yağışına bənzədilən bu ilahi cəzalar qətiyyən sərtlik və sevgidən uzaq hökmlər kimi qiymətləndirilə bilməz.

İmam Museyi-Kazım: (ə) "**Bilin ki, Allah, ölümdən sonra torpağı dirildir**[39]**",- ayəsinin təfsirində belə buyurur:** Ayənin məqsədi yalnız qurumuş torpağı yağışla canlandırmaq deyil, əksinə Allah-Təala (mömin və müxlis) bir qrupu seçərək onların vasitəsilə ədaləti dünyada bərpa etmək istəyir. Yer üzünün ədaləti ayaq üstdə tutulub, yaşadılması bərpa olacaq, heç şübhəsiz ki, yer üzündə ilahi cəzaların tətbiqi qırx gün yağışın yağmasından daha faydalıdır".

Diqqət etsək hədisdə ilahi cəzanın fəlsəfəsi deyərkən - intiqam, sərtlik və s. məsələlərdən bəhs edilməmişdir. Əksinə mərhəmət, məhəbbət, ilahi ədalət və insanlığın əmin-amanlığının və rifahının təmini, ilahi hökmlərin fəlsəfəsi və məqsədi kimi göstərilmişdir.

## b) İLAHİ CƏZALARIN İSBATI VƏ TƏTBİQİ

Cəmiyyətdə bərabərhüquqlu rejimin mövcud olması üçün İlahi cəzaların lazım olan qanunlar olduğunu sübut və dəlillərlə göstərmək istənilərsə, bu zaman ilahi cəzaların İslamda rəhmət və sevginin başqa bir formada təzahürü olduğuna şahid oluruq.

---

[39] Hədid – 17

İlahi cəzaların həyata keçirilməsinə aid bir sıra şərtlər var. Bir çox cinayətin və günahın qəbulunda dörd nəfərin şahidliyi və ya müttəhimin dörd dəfə cinayəti etiraf etməsi kimi şərtlər qoyulmuşdur. Məsələn, zina edən bir kişiyə və qadına ilahi cəzanın icrası üçün dörd ədalətli və etibarlı adamın kişi ilə qadını günah zamanı gördüklərinə dair şəhadət etmələri lazımdır.

Həmçinin bu dörd nəfərin ifadəsi bir-birinə zidd olmamalıdır. Verdikləri ifadədə hər hansı bir  ziddiyyət olarsa, hakim o dörd nəfəri cəzalandırır. Hətta fiqh kitablarına baxanda qadınla kişini bir yataqda görmək belə ilahi cəzanın həyata keçirilməsində kifayət qədər dəlil sayılmadığını görürük.

Bu vəziyyət qarşısında ilahi cəza tələb edən bir zinanı isbat etmək mümkündürmü görəsən?

Tarix kitablarında şahidlər tərəfindən edilmiş belə bir günah nəql edilməmişdir. Bir sözlə, bu cür günahların şahidlərlə sübutetmə yolu bağlanılıb. Bu da İslamı rəhmətin günahkarları necə əhatə etdiyinin bariz göstəricisidir. Cinayətkarın ikinci isbat yolu isə günahkarın qeyd edilən şərtlər çərçivəsində öz iqrar və etirafıdır. Cinayətin sübut edilməsi və ilahi cəzanın icrası üçün günahkar dörd ayrı yerdə günahını iqrar və etiraf etməlidir. Bir yerdə dörd dəfə etiraf etməsi yalnız bir etiraf kimi qəbul edilir[40].

[40] Bu hökmün hədisi üçün Vesail-us Şiə c.18, s.377 kitabına müraciət edin.

Günahkarın günahı isbat edilmədən şəri hakimin hüzurunda tövbə edib etdiyindən peşman olduğunu göstərərsə ilahi cəzanın tətbiqi çox zəif bir görüşdür[41].

Burada İslamın mərhəmət və sevgisini nümayiş etdirən bir rəvayəti nəql etməyi münasib görürük.

Peyğəmbərin haqq xəlifəsi və canişini Həzrət Əlinin (ə) hüzuruna günaha düçar olmuş bir qadın gəldi. Qadın, Həzrət Əliyə (ə) zina etdiyini dedi. Dünya əzabının axirət əzabından daha yüngül olduğunu bildiyindən Həzrət Əlidən (ə) qadın bu günahdan təmizləməsini istədi.

Həzrət Əli (ə) belə buyurdu: "İndi get, doğuş etdikdən sonra gəl, səni günahından təmizləyim".

Qadın doğuş etdikdən sonra təkrar Həzrət Əlinin (ə) hüzuruna gələrək eyni istəyini təkrar etdi. Həzrət Əli (ə) onu bu istəyindən çəkindirmək və etirafını unutdurmaq üçün bir sıra suallar verib, onu məşğul etməyə çalışdı. Sonra qadına:- "Get uşağına süd ver və uşağın süddən kəsiləndə gəl",-deyə buyurdu. Qadın iki il aradan sonra təkrar Həzrət Əlinin (ə) hüzuruna gəldi, eyni istəyini təkrar etdi və cəzasını çəkmək istədiyini söylədi. Həzrət Əli (ə) yenə də ona suallar verərək canını qurtarmaq istədi və sonra qadına "get, uşağını böyüt gəl, sonra səni günahından təmizləyərəm" buyurdu. Qadın İslam dininin cinayətkarlara bu qədər mərhəmət və

[41] Bu hökmün hədisi üçün Vesail-us Şiə c.18, s.327 kitabına müraciət edin.

sevgisini görəndə özünü saxlaya bilmədi və ağlayaraq Həzrət Əlinin (ə) yanından ayrıldı[42].

Diqqət edirsiniz, ilahi cəza tələb edən günahların isbatı və sübutu çox çətin və mümkünsüzdür. Hətta, günah və cinayətini etiraf edən günahkarlara belə uca İslam dini rəhmət və məhəbbət qanadlarını açmışdır. İslam dini sərtlik tərəfdarı olan qaba bir din olmuş olsaydı, sizcə bir günahın qəbulunda bu qədər çətin şərtləri qoyardımı? Bunlar üzərində düşünüb insaflı hökm etmək lazımdır.

## b) İLAHİ CƏZALARI TƏTBİQ ETMƏK ƏDƏBİ

Günahkar və cinayətkarın günahı sübut olduqda belə, şəri hökmün tətbiq olunması zamanı ədəb və əxlaqın təcəlləsinin bariz bir şəkildə gözə çarpdığını görərik.

İslami ədəb və əxlaqdan bəzi nümunələr:

**1**-Qış aylarında günlərin ilk və son saatlarında hava çox soyuq olduğundan qırmancın günahkara əzab verəcəyi nəzərə alınaraq cəza havanın uyğun olduğu saatlarda həyata keçrilir.

**2**-Yaz aylarında isə qış aylarının əksinə, səhər çox isti olduğu üçün, hökm axşam saatlarında tətbiq olunur[43].

**3**-Günahkar yerə uzadılıb qamçılanmamalıdır. Əksinə əyləşdirilib və ya ayaqda dayandırılmalıdır. Çünki bu iki halda qırmanc zərbələri daha yavaş vurulur[44].

---

[42] Vesail-uş Şiə c.18, s.315
[43] Vesail-uş Şiə c.18, s.378

**4**-Günahkarın xəstə olması halında yaxşılayana qədər hökm təxirə salınmalıdır[45].

**5**-Günahkar hamilə olarsa doğumundan sonra hökm icra olunmalıdır[46].

Bütün qeyd edilən bu ilahi hökmlərin fəlsəfəsi, baxımından ilahi cəzaların sübutu və dəlili, ilahi cəzaların tətbiq olunmasındakı ədəb və əxlaq baxığımnda hər bir ağıllı insan, insaf sahibi və fikirlərdə fanatizmdən uzaq olan insan İslam dininin nə qədər mərhəmət, sevgi və şəfqət dini olduğunu anlayar və İslamın hər cür sərtlik, kobudluq və zorakılıqdan uzaq olduğunu başa düşər. Bu hökm və cəzaların ilk görünüşü sərtlik və kobudluq kimi görünsə də cəmiyyətin asayiş və təhlükəsizliyi üçün nə qədər bərəkətli və xeyirli olduğunu görürük. Sözün özü həqiqətdə bu hökmləri kənar sərtlik kimi görünsə də, içi rəhmət doludur.

## 3-CİHAD VƏ İSLAM RƏHMƏTİ

Rəhmət və sevgi dini kimi tanıdığınız din və İslam cihadı nə dərəcədə vacib hesab etmişdir? Müsəlmanların başqalarına hücum edib öldürməsinə icazə haçan verilir?

Bu müharibə, sərtlik və kobudluq deyilmi? İslam niyə cihadı məqbul saymışdır?

Buna bənzər suallara cavab vermək üçün Quran ayələri işığında cihad anlayışını təhlil edək.

---

[44] Vesail-uş Şiə c.18, s.369
[45] Vesail-uş Şiə c.18, s.320
[46] Vesail-uş Şiə c.18, s.378

## a) HƏRBİ HAZIRLIQ

Allah-Təala Ənfal surəsinin 60-cı ayəsində belə buyurur:

وَأَعِدُّواْ لَهُم مَّا اسْتَطَعْتُم مِّن قُوَّةٍ وَمِن رِّبَاطِ الْخَيْلِ تُرْهِبُونَ بِهِ عَدُوَّ اللهِ وَعَدُوَّكُمْ وَآخَرِينَ مِن دُونِهِمْ لاَ تَعْلَمُونَهُمُ اللهُ يَعْلَمُهُمْ

"(Ey möminlər) Allahın düşmənini və öz düşməninizi, onlardan başqa sizin bilmədiyiniz, lakin Allahın bildiyi düşmənləri (münafiqləri) qorxutmaq üçün kafirlərə qarşı bacardığınız qədər qüvvə və (cihad üçün bəslənilən) döyüş atları tədarük edin. Allah yolunda nə xərcləsəniz, onun əvəzi artıqlaması ilə ödənilər və sizə heç bir haqsızlıq edilməz![47]".

İslamın hədəfi müharibəni kökündən kəsib qan tökülməsinin qarşısını almaqdır. Yəni ey Müsəlman! Güclü və təchizatlı ol ki, düşmən səninlə müharibə düşüncəsində belə gəlməsin.

Məqsədi sülh yaradıb, müharibənin kökünü qurutmaq istəyən İslam dini müharibə tərəfdarı yox, Sülh dini kimi dünyaya enmişdir.

Uca Allah iki ayədə belə buyurur:

وَإِن جَنَحُواْ لِلسَّلْمِ فَاجْنَحْ لَهَا وَتَوَكَّلْ عَلَى اللهِ

[47] Ənfal – 60

“Əgər onlar sülhə (barışığa) meyl etsələr, sən də sülhə meyl et və Allaha bel bağla. Həqiqətən, O, (Allah hamınızın sözlərini) eşidəndir, (niyyətlərinizi) biləndir![48]”.

Çünki İslamın hədəfi döyüşüb qan tökmək deyil. Müqəddəs İslam dini "düşmən peşmançılıq duyub sülh və barış etmək istəyirsə, sən də sülh və barış yolunu seç",- deyə nəsihət edir.

İslam heç bir müharibədə əsgərlərinə müharibəni başlayan tərəf olmalarına icazə verməmişdir. Peyğəmbərimizin (s) iştirak etdiyi bütün müharibələr müdafiə xarakterli olmuşdur. Tarix boyu bütün döyüşlərdə ilk hücum edən düşmən tərəfi olmuşdur. İslam dini bu hücumları dəf etmək və təhlükəsizliyini qorumaq üçün təbii olaraq müdafiə sisteminə keçmişdir.

### c) CİHADIN HƏDDİ VƏ ƏDƏBİ

Uca Allah belə buyurur:

الْحَرَامُ بِالشَّهْرِ الْحَرَامِ وَالْحُرُمَاتُ قِصَاصٌ فَمَنِ اعْتَدَى عَلَيْكُمْ فَاعْتَدُواْ عَلَيْهِ بِمِثْلِ مَا
اعْتَدَى عَلَيْكُمْ وَاتَّقُواْ اللّهَ وَاعْلَمُواْ أَنَّ اللّهَ مَعَ الْمُتَّقِينَ

“(Döyüş) haram olan ay [hicrətin 7-ci ilinin Zilqədə ayı) (döyüş)] haram olan ay (hicrətin 6-cı ilinin Zilqədə ayı) müqabilindədir. Hörmətlər qarşılıqlıdır. Sizə qarşı həddini aşanlara siz də həmin

---

[48] Ənfal – 61

ölçüdə həddi aşın (cavab verin). Allahdan qorxun (qədərindən artıq əvəz çıxmayın) və bilin ki, Allah müttəqilərlədir[49]".

Bu ayələrin təbiri ilə müharibə və cihadın da özünəməxsus bir sıra qayda və ölçüləri vardır. Onlardan bəziləri:

1-Hücum edib müharibə elan edənlərə qarşı təkcə müharibə və cihad icazəsi verilmişdir.

2-Düşmənlərin təcavüzünə müqabil onların şər və təhlükələrini dəf edəcək dərəcədə onlara cavab verilməlidir.

## d) MÜHARİBƏ MEYDANINDA TƏQVALI OLMAQ

Cihad və özünümüdafiəni bütün ağıl sahibləri daim qəbul edib ona əməl edirlər. Heç bir ağıl və vicdan sahibi, düşmənin ona hücum edib can, mal və namusuna hakim olmasına yol verməz. Əksinə, bütün ağıl sahibləri Qurani-Kərimin cihad haqqındakı fikrini müdafiə edirlər.

## d) CİHADI TƏRK ETMƏK İBADƏTGAHLARI DAĞITMAQDIR

Qurani-Kərimdə cihadın fəlsəfəsi haqqında belə buyrulur:

وَلَوْلَا دَفْعُ اللَّهِ النَّاسَ بَعْضَهُم بِبَعْضٍ لَّهُدِّمَتْ صَوَامِعُ وَبِيَعٌ وَصَلَوَاتٌ وَمَسَاجِدُ يُذْكَرُ فِيهَا اسْمُ اللَّهِ كَثِيرًا وَلَيَنصُرَنَّ اللَّهُ مَن يَنصُرُهُ إِنَّ اللَّهَ لَقَوِيٌّ عَزِيزٌ

---

[49] Bəqərə - 194

“O kəslər ki, haqsız yerə, ancaq “Rəbbimiz Allahdır” - dediklərinə görə yurdlarından (Məkkədən) çıxarıldılar. Əgər Allah insanların bir qismini digər qismi ilə (müşrikləri möminlərlə) dəf etməsəydi, sözsüz ki, içərisində Allahın adı çox zikr olunan soməələr (rahiblərin yaşadığı monastırlar), kilsələr, məbədlər (yəhudi məbədləri) və məscidlər dağılıb gedərdi (darmadağın edilərdi). Allah Ona (öz dininə) yardım edənlərə, şübhəsiz ki, yardım edər. Həqiqətən, Allah yenilməz qüvvət, qüdrət sahibidir![50]”.

Bəli, igid və imanlı insanlar əli-qolu bağlı yerlərində oturarlarsa, zalım, imansız, imperialist qüvvələr meydanı boş görüb insanlara hakim olacaqları kimi, ibadətgahlardan da heç bir əsər və iz buraxmazlar. Çünki ibadətgahlar xalqı qəflətdən oyadan, düşmənlərlə müharibə və mübarizə mövqeləridir. Belə ki, hər bir Allaha dəvət, insanları özlərinə qul etmək istəyən mənfəətpərəst zalım qüvvələrə qarşı durmaqdır. Bəşəriyyətin törəmələri onların soyundan olduğunu düşünənlər, tapdıqları ilk fürsətdə ibadətgahları viran etməkdən çəkinmirlər.

Bu ayə və cihadla bağlı digər ayələrə diqqət etdikdə İslamda cihadın adətən müdafiə məqsədli olduğu görünür. Bu müdafiə sayəsində haqsızlığa məruz qalan insanlar zülmdən xilas olduğu kimi, ibadətgahlar da öz mənfəətini təmin edə bilmişdir. Bundan da görünür ki, insanlara qarşı edilən haqsız hücumlara qarşı mübarizə labüd olduğu kimi, dinə edilən hücum və təcavüzə qarşı da müqavimət göstərmək və döyüşmək lazımdır.

[50] Həcc – 40

## 4- İbtidai Cihad

Cihad barədə verilən bəyanatlar yerində və məqsədəuyğun bəyanatlardır. İslamın bu məsələdəki görüşünü hər bir ağıllı insan və azad vicdanlı insanı düzgün mənimsəyir. Bizlər də İslamın müdafiə məqsədli mənimsədiyi cihadın rəhmət olduğunu qəbul edirik. Amma ibtidai cihad, düşmən hücum etmədən düşmənə hücum etmək İslamda məqbuldumu? Bunun özü kin və nəzakətsizlik deyilmi?

Bu və bənzəri suallara iki şəkildə cavab vermək mümkündür:

### a) İSLAMDA İBTİDAİ CİHAD VARMI?

Bəzi tədqiqatçılar və xüsusilə də İslam alimləri İslamda ibtidai cihadın olmadığı fikrini müdafiə edirlər. Daha əvvəl də qeyd etdiyimiz kimi, əziz İslam Peyğəmbərinin (s) bütün müharibələri müdafiə məqsədli cihaddır. Yəni əvvəl düşmən hücum etmiş, müsəlmanlar da özlərini müdafiə etmək məqsədilə onlara cavab vermişlər.

**ƏHZAB DÖYÜŞÜ:** İslam dini və Peyğəmbərimiz (s) əleyhinə keçirilən ən böyük döyüşlərdən biri Əhzab döyüşüdür. Bu müharibə müşriklərdən müsəlmanlara zülm və təzyiqlər edilən çox çətin bir müharibə idi. Digər müharibələrdə olduğu kimi bu savaşda da ilk hücum müşriklər tərəfindən baş verdi. Hicazın müxtəlif regionlarından bir araya gələn müşriklər Məkkə müşriklərinin liderliyində Mədinə və Mədinəyə bağlı ətraf şəhər və qəsəbələri mühasirəyə aldılar. Müsəlmanlar da təbii olaraq can, mal və namus müdafiəsi məcburiyyətində qaldılar.

İndi insafla hökm vermək lazımdır. Heç bir ağıllı insan və vicdan sahibi bir kimsə tam təchizatlı və müxtəlif silahlarla silahlanmış düşmənin, şəhərlərini işğal edib, qətliam edərək qadınlarının və uşaqlarının düşmənə əsir düşməsinə, evlərinin yandırılmasına və mallarının talan etməsinə razı olarmı?

Bu halda müsəlmanların mal, can, namus və şəhərlərini düşmən təcavüzündən qorumaq üçün mübarizə aparması kin və zorakılıqdırmı?

**HÜNEYN DÖYÜŞÜ:** Həvazin qəbiləsi və bir qrup müşriklərin İslamın mərkəzi olan Mədinəyə hücum etmək məqsədilə hazırlıq gördükləri Peyğəmbərə (s) bildirilib. Peyğəmbər (s) Müsəlmanları şəhərlərini qorumağa dəvət etdi və beləliklə, Hüneyn döyüşü baş verdi.

**XEYBƏR DÖYÜŞÜ:** Görünüşdə bəziləri bu müharibəni ibtidai bir müharibə kimi qavrayır. Ancaq tarixi oxuyanda vəziyyətin belə olmadığını görürük. Əksinə, Xeybər döyüşü də tamamilə müdafiə məqsədli bir cihaddır.

Allah Rəsulu (s) bu döyüşdə müşriklərin vasitəli və vasitəsiz bütün hiylə və intriqalarını suya salmaq istəyirdi. O gün Xeybər, fitnə, fəsad və pisliklərin mərkəzi vəziyyətində idi. Müsəlmanlar o fitnə mərkəzindən narahat edilir və bir çox təhdidlərə məruz qalırdılar.

Peyğəmbərimiz (s) və müsəlmanlar o fitnə və fəsad mərkəzinə qarşı özlərini müdafiə etməyə başladılar.

**BƏDR DÖYÜŞÜ:** Bədr döyüşü də digər müharibələr kimi müdafiə cihadıydı. Hicrətin ikinci ilində Kiçik Bədr və Böyük Bədr

olmaq üzrə iki dəfə müharibə baş verdi. Hər iki döyüş də müşriklər tərəfindən başlanılıb.

Məkkə əzazillərinin Mədinə ətrafına hücum edərək müsəlmanların heyvanlarına və mallarına əl qoyduqları və onların mallarını qarət edib Məkkəyə apardıqları Allah Peyğəmbərinə (s) çatdıqda, Allah Rəsulu (s) bir qrup müsəlman əsgəri dərhal müşriklərin dalınca göndərdi. Müsəlman əsgərlər, talançı müşrikləri Bədr adlanan yerə qədər təqib etdilər, ancaq izlərinə çatmamış geri döndülər. Bu hadisə heç bir müharibə və mübarizə olmadan bitdi və tarixə Kiçik Bədr döyüşü kimi keçdi.

Böyük Bədr Döyüşü isə bu hadisədən bir neçə ay sonra baş tutdu və həqiqətən də bu müharibə Kiçik Bədr döyüşündə müsəlmanların dəvə və mallarını qarət edən Məkkənin müşriklərinə bir cəzalandırıcı cavab idi.

Peyğəmbərin (s) bütün müharibələri müdafiə məqsədli və talanmış əmlakın qaytarılması naminə olduğundan onu heç bir şəkildə ibtidai cihad kimi də xarakterizə etmək mümkün olmur. Belə ki, Quranın bir çox ayəsi də bu müharibələrin müdafiə məqsədli olduğunu işarə edir.

Allah Təala buyurur:

أَلَا تُقَاتِلُونَ قَوْمًا نَّكَثُوا۟ أَيْمَانَهُمْ وَهَمُّوا۟ بِإِخْرَاجِ الرَّسُولِ وَهُم بَدَؤُوكُمْ أَوَّلَ مَرَّةٍ أَتَخْشَوْنَهُمْ فَاللّٰهُ أَحَقُّ أَن تَخْشَوْهُ إِن كُنتُم مُّؤْمِنِينَ

“(Ey möminlər!) Məgər siz andlarınızı (əhdlərini) pozan, Peyğəmbəri (öz yurdundan) çıxardıb qovmaq niyyətində olan, üstəlik sizinlə döyüşə də birinci başlayan bir tayfa ilə vuruş-

mayacaqsınızmı? Məgər onlardan qorxursunuz? Əgər (həqiqi) möminlərsinizsə, bilin ki, əslində qorxmalı olduğunuz məhz Allahdır![51]".

Ayədə keçən "sizinlə döyüşə də birinci başlayan" cümləsindən də açıq və dəqiq bir şəkildə Peyğəmbərimizin (s) müharibələrinin hamısının müdafiə məqsədli olduğu və ibtidai cihad olmadığı anlaşılır.

إِلاَّ الَّذِينَ عَاهَدتُّم مِّنَ الْمُشْرِكِينَ ثُمَّ لَمْ يَنقُصُوكُمْ شَيْئًا وَلَمْ يُظَاهِرُواْ عَلَيْكُمْ أَحَدًا فَأَتِمُّواْ إِلَيْهِمْ عَهْدَهُمْ إِلَى مُدَّتِهِمْ إِنَّ اللّهَ يُحِبُّ الْمُتَّقِينَ

"Müqavilə bağlandıqdan sonra sizə qarşı bir naqislik etməmiş (onun şərtlərini pozmamış) və sizin əleyhinizə heç kəsə yardım göstərməmiş müşriklər istisnadır. Onlarla əhdinizə axıra qədər (müddəti bitənədək) vəfa edin. Şübhəsiz ki, Allah müttəqiləri (əhdi nahaq yerə pozmaqdan çəkinənləri) sevər![52]".

Bu ayədə keçən ifadələrə baxanda İslam düşmənlərinin müqaviləni pozmadığı və müsəlmanların düşmənlərinə İslam əleyhinə hər hansı bir yardım içində olmadıqları müddətdə müharibə etmədiyini görürük. Heç bir haqq və bəhanə ilə onlara savaş aça bilməz. Onların malları və namusları hörmətli və möhtərəmdir.

---

[51] Tövbə - 13
[52] Tövbə -14

## b) İBTİDAİ CİHAD ŞÜURUN QƏBUL ETDİYİ BİR MÜDAFİƏ SİSTEMİDİR

Qurani-Kərimdə üç növ ibtidai cihaddan söz edilmiş və bu ibtidai cihadların heç bir şəkildə İslamı rəhmət və sevgiyə zidd olmadığı kimi, əksinə aqil insanlar tərəfindən qəbul etdiyi inkar edilməz bir həqiqətdir.

**1-Cihad, Fitnəni Yox Etmək Üçündür!**

Allah-Təala belə buyurur:

وَقَاتِلُوهُمْ حَتَّى لاَ تَكُونَ فِتْنَةٌ وَيَكُونَ الدِّينُ لِلّهِ

"Fitnə (müşriklərin fitnəsi) aradan qalxana qədər və din (ibadət) ancaq Allaha məxsus edilənədək onlarla vuruşun. Əgər onlar (bu cür hərəkətlərə) son qoyarlarsa (siz də onlarla vuruşmaqdan vaz keçin!), çünki düşmənçilik ancaq zülm edənlərə qarşı olur[53]".

Fitnə və fəsadın baş verdiyi hər yerdə müharibə və qan tökülmədən can təhlükəsizliyinin təmin olunma ehtimalı olmayan hallarda uca İslam dini ibtidai cihadı nəzərdə tutmuşdur. Daha əvvəl də bildirildiyi kimi ibtidai cihad bütün biləndər və vicdan sahibləri tərəfindən qəbul və xoş görünən bir müdafiə sistemidir. İndiki dünyada da bu cür müdafiə sistemləri dəfələrlə müşahidə olunmuşdur. Buna görə də ibtidai cihad sisteminə bir çox nümunə göstərmək olar.

Hamımızın şahidi olduğu kimi, bundan bir neçə il əvvəl Bosniya Və Herseqovina, Serblərin vəhşi və qəddarcasına təcavüz və

---

[53] Bəqərə -193

soyqırımına məruz qaldı. Cani Serblər, evləri, məscidləri, məktəbləri, xəstəxanaları, tarlaları və bir millətin nəslini vəhşicəsinə genosidə məruz qoyaraq kütləvi şəkildə qətliam etməyə başladı.

Birləşmiş Millətlər görüşlər keçirərək Bosniyadakı müdafiəsiz xalqa tətbiq oluna soyqırım və zülmü ortadan qaldırma yollarını aramağa başladı. Birləşmiş Millətlər müzakirələr sonunda bu təcavüz və zülmü əngəlləmək üçün ibtidai cihada müraciət edərək serbləri dayandırma qərarı aldı. Bu məqsədlə hərbi hücuma keçərək serblərin cinayət və soyqırımlarına mane oldu. Biz, burada BMT-nin hədəf və məqsədini mühakimə edə bilmərik. Hər bir halda serblərin zülm və cinayətlərinin qarşısını almaq üçün BMT-nin hərbi hərəkatı bütün ağıllı və vicdan sahibləri tərəfindən dəstəklənərək yerində və doğru bir hərəkət kimi qiymətləndirilmişdir.

Son illərdə Əfqanıstanda baş verənlərə hamımız yaxından şahid olduq. Sevgi, mərhəmət və insanlıqdan məhrum Taliban qrupu Əfqanıstana daxil olaraq, müdafiəsiz insanları qətlə yetirdi və dünya sağlamlığını təhdid edən xaşxaş əkimini davam etdirməyə israr etdilər. Bununla da kifayətlənməyərək cinayətlərini genişləndirərək Əfqanıstanda bənzəri az görülmüş bir qırğın və cinayət həyata keçirdilər. Əgər Birləşmiş Millətlər Bosniyadakı kimi ibtidai bir cihadla Əfqanıstanda törədilən cinayət və zülmlərə müdaxilə edib məzlum Əfqan xalqını xilas etsəydi, hər bir ağıllı insan, insaf və vicdan sahibi tərəfindən dəstəklənərdi. Ancaq ABŞ kimi mənafe və maraqlara əsaslanıb siyasət aparan bir gücün Əfqanıstanı işğal etməsi problemləri daha da artırdı.

Hər bir halda fitnə və fəsadı yox etmək və məzlum insanları zülm və işgəncədən xilas etmək üçün başlanılan müharibə və ibtidai cihad, Qurani-Kərimin və bütün azad və insaf sahibi insanların dəstəklədiyi bir işdir.

**2-ASİ VƏ AZĞINLARLA QARŞI CİHAD**

Allah-Təala belə buyurur:

وَإِن طَائِفَتَانِ مِنَ الْمُؤْمِنِينَ اقْتَتَلُوا فَأَصْلِحُوا بَيْنَهُمَا فَإِن بَغَتْ إِحْدَاهُمَا عَلَى الْأُخْرَى فَقَاتِلُوا الَّتِي تَبْغِي حَتَّى تَفِيءَ إِلَى أَمْرِ اللَّهِ

"Əgər möminlərdən iki dəstə bir-biri ilə vuruşsa, onları dərhal barışdırın. Əgər onlardan biri təcavüzkarlıq etsə, təcavüzkarlıq edənlə Allahın əmrinə (itaətinə) qayıdana qədər vuruşun. (Təcavüzkarlıq edən Allahın əmrinə) qayıtsa, hər iki dəstənin arasını ədalətlə düzəldin və insafla hərəkət edin. Şübhəsiz ki, Allah insaflıları sevər![54]".

Ayədə də buyrulduğu kimi, əgər iki qrup, iki qəbilə və ya iki Müsəlman ölkə bir-birinə hücum edib qan töksələr, Müsəlmanların vəzifəsi onların arasını tapıb onları barışdırmaqdır. Onlardan biri sülh və barışı qəbul etməyib, zülm və ədalətsizliyini davam etdirərsə, İslam qanunlarına görə asi və təcavüzçü sayılır. Sülhü və müsəlmanların təhlükəsizliyini təhdid edən bir dəstə, qrup, qəbilə və ya bir ölkə müsəlmanlara zərər verməsələr, İslam dini bu icmaya, qrupa və ya ölkəyə qarşı mümkün təhlükəni dəf

[54] Hucurat – 9

etmək üçün ibtidai cihad izni vermir. Çünki müsəlmana qarşı heç bir təhlükə əxz etmirlər.

Uca İslam dini, bir qrupun başqa bir qrupa, irqə və millətə zülm və haqsızlığına tamaşaçı qalmasına icazə vermir. Əksinə din, dil və inanc ayırd edilmədən məzlum və incidilmiş tərəfin yanında yer almağı əmr etmişdir. Buna görə də bu gün bütün dünya müsəlmanları məzlum Fələstin xalqının yanında olmalıdır. Çünki müsəlmanların səssiz qalması qəssab İsrailin cinayətlərini artırması deməkdir. Müsəlmanlar yekvücud sionist rejimin əleyhinə ittifaq etsələr, bu gün işğalçı İsrail məzlum və müdafiəsiz Fələstin xalqını bu qədər haqsız yerə öldürüb, vətənlərindən didərgin edə bilməzlər. Əks halda, sabah qiyamət günü İsrailin bu cinayət və zülmünə tamaşaçı qalan bütün insanlar, xüsusilə də müsəlmanlar Allah dərgahında məsul olacaq və hesab verəcəklər. Bu aksiyaların mahiyyəti ibtidai cihad olmuş olsa da hər bir ağıllı insan, azad və məntiq sahibi yanında qəbul görən bir hərəkət olaraq dəyər görür və heç bir zaman kin və zorakılıq etməz. Əksinə İslam mərhəmət və sevgi, məzlum və savunmasızların yanında olmağı tələb edir.

## 3-İSLAM TƏBLİĞATININ ÖNÜNDƏKİ ƏNGƏLLƏRİ QALDIRMAQ

Uca Allah, insanların səadəti, qurtuluşu, rahatlıq və əmin-amanlığı üçün bir sıra proqramlar hazırlamışdır. Bu proqramların icrası üçün də bir sıra Peyğəmbərlər göndərmiş və onlara bu proqramları xalqa və bəşəriyyətə təqdim etmələrini əmr etmişdir.

Peyğəmbərlər də insanları səadət və qurtuluşa aparacaq bu ilahi əmrlərin təbliğində, qarşılarındakı maneələri gözəlliklə və tolerantlıqla dəf edə bilməyəndə ilahi dəvətin insanlara çatması üçün ibtidai cihad yolunu seçmişlər. İnsanlar hər yerdə və şəraitdə ilahi dəvəti və əmrləri sərbəst eşitmə hüququna malikdirlər.

Mənfəət və şəxsi maraqlarını güdən bir qrup bu haqq dəvətin insanlara çatmasına mane olaraq onların azadlıqlarını təhdid edirsə, proqram sahibinin o maneəni yox etməsi təbii haqdır. Bu səbəbdən Müsəlmanlar İslami qanunlar əsasında ağıla və məntiqə uyğun bir şəkildə İslami əmrləri qeyri-müsəlmanlara bildirmək istədikdə, onların bu məntiqli və İslama uyğun təbliği bir sıra mənfəət və mənfəətpərəstlər tərəfindən əngəllənir və bu təbliğatın insanlara çatmaması üçün hər cür qeyri-qanuni yola əl atırlar. İslam dini bu vəziyyət qarşısında tərəfdarlarına bu maneələri qaldırın,-deyə əmr edir. Dəvəti insanlara çatdırmaları üçün ibtidai cihad izni vermişdir. Beləliklə, müsəlmanlar bu ibtidai cihad münasibətilə o maneələri yox edərək, insanların azadlıq və səadətinə vəsilə olurlar.

İranın fəthinə baxanda İslam ordusunun öz əqidə və ideo-logiyasını İran xalqına qəbul etdirmək üçün İrana getmədiyini

görürük. Əksinə İslam ordusu təbliğat qarşısında duran məntiqsiz maneçilikləri aradan qaldırmaq üçün İrana getdi.

İslam ordusu İslamın yayılmasına mane olan Sasani Dövlətinə qalib gəldikdə İslamı çətin və zorakılıqla insanlara qəbul etdirmədi.

İranın fəthindən illər sonra belə Sasani məbədlərində atəşlər söndürülmədi və onlar ayin və inanclarında baqi qaldılar. İslam Ordusu İslami təbliğatın qarşısında Sasani maneəsini qaldıraraq ilahi dəvət və əmrləri insanlara çatdırdı. İran xalqı da qısa bir zaman sonra öz iradə və istəkləri ilə bu çağırışa tabe olaraq Müsəlman oldu.

Ümumiyyətlə ibtidai cihad, fitnəni yox etmək, azğın və zalımlarla mübarizə və İslam təbliğatının önündəki əngəlləri qaldırmaq üçündür. Bu təşəbbüs qətiyyən kin olaraq bilinməyən, əksinə, rəhmət və sevginin mahiyyəti kimi qiymətləndirilməlidir.

Qeyd olunan bu məqamlardan sonra İslam qanunlarının görünüşü kobudluq və sərtlik kimi görünsə də əslində yaxşıca diqqət ediləndə müddəalarının rəhmət və sevgi dolu olduğu açıq və dəqiq bir şəkildə başa düşülür. Təpədən dırnağa mərhəmət və sevgi dolu bir dini, kin və müharibə tərəfdarı kimi tanımaq istəyənlər ya İslam dinindən xəbərsizdirlər, ya da İslam dinini mənfəət və maraqlarına mane gördükləri üçün kin və nifrətlə düşmənçilik edirlər.

## İSLAMIN CİHAD HƏDƏFİ NƏDİR?

Müharibə və sülhü təhdid edən heç bir hərəkət və nümayiş İslam dinində bir dəyər kimi görünməmiş, əksinə, insanların təhlükəsizliyini, malını və canını təhdid edən hər bir hərəkət pislənmişdir.

Bəzi ayələrdə bu cür hərəkətlər Allahın əzabı və bəlası kimi səciyyələndirilmişdir.

Bu səbəblə, uca İslam dini mümkün olduğu qədər müharibədən uzaq durulmasını əmr etmişdir. Ancaq ilahi dəyərlər, ümmətin birlik və bərabərliyinin təhlükə altında olması məsələsi olarsa, o halda müharibə "Allah yolunda cihad" adını alaraq, şərafət qazanacaq.

İslamdakı cihad anlayışı qətiyyən İslam düşmənlərinin və inadkar cahillərin müdafiə etdiyi öz inanclarını qəbul etdirmə mənasını daşımır. İslam dinində zorla qəbul etdirilən bir inancın heç bir dəyəri yoxdur. Müqəddəs İslam dinini sərtlik və kobudluq tərəfdarı kimi qiymətləndirənlər təbii fəlakətlərə və bəlalara baxaraq Uca Allahı da qəddar və sərtlik tərəfdarı kimi görürlər. İddialarına da hər il sel, zəlzələ, sunami və s. təbii fəlakətlərdə həyatını itirən yüz minlərlə insanı dəlil göstərirlər.

## BEŞİNCİ BÖLÜM

# HƏDİSLƏR İŞIĞINDA HUMANİTAR ƏLAQƏLƏR VƏ YARDIMLAŞMALAR

1-İmam Sadiq (ə) bir hədisdə uca Allahın belə buyurduğunu nəql edir: **"İnsanların hamısı mənim ailəmdəndir. Qatımda ən sevimli və dəyərli adamlar insanların ehtiyaclarını aradan qaldırmaq üçün çalışanlardır[55]".**

2-Hz. Əli (ə) Misir valisi Malik Əştərə belə bir yazı əmri göndərib: **"Xalqına yaxşı davranmağı qəlbinə yerləşdir, onları sevməyi və onlara yaxşılıq etməyi prinsip tut! Onlara qarşı qalibiyyəti qənimət bilən yırtıcı bir canavar olma. Çünki insanlar iki cürdür: Ya dində sənin qardaşlarındır, ya da yaradılışda səninlə bərabərdirlər[56]".**

3-Abdullah b. Kuayn belə nəql edir: İmam Əlinin (ə) vəfalı və sadiq komandirlərindən Makal b. Kays Riyahi mürtədlərlə (dindən çıxanlar) müharibəyə getməzdən əvvəl son dəfə Həzrət Əlinin (ə) hüzuruna gələrək yürüş üçün icazə istədi.

Həzrət Əli (ə) ona belə buyurdu: **"Ey Makal! Əlindən gəldiyi qədər təqvalı ol ki, bu Allahın möminlərə əmridir. Qiblə əhlini (Müsəlmanlar) talayıb, haqqına təcavüz etməyib, Əhli Kitaba zülm etmə![57]".**

---

[55] Üsulu Kafi, c.2, s,199 (Türkcəsi)

[56] Nəhcül-bəlağə, məktub 53

[57] Şerhu İbn-mən Ebil Hadid, c. 3, s. 137, Biharül-ənvar c. 33, s. 411

4-Rəsulu Əkrəm (s) belə buyurur: -**"Xalqın ən pisini sizə tanıdımmı"?** -Bəli, ya Peyğəmbər dediklərində, belə buyurdu: **"Xalqın ən pisi, yalnız yaşayan, yardımını xalqdan əsirgəyən və köləsini qamçılayan şəxsdir"[58].**

5-Allah Rəsulu buyurur (s): "**İnsanların ən pisi xalqı sevməyən və xalq tərəfindən sevilməyəndir[59]".**

6-Peyğəmbərimiz (s) buyurur: **"İnsanlar darağın dişləri kimi bərabərdirlər[60]".**

7-Uca İslam Peyğəmbəri (s) belə buyurur: **"İnsanlar qızıl və gümüş mədənləri kimidirlər[61]".**

8-Peyğəmbərimiz (s) buyurur: **"İnsanların hamısı Adəm övladlarıdır. Adəm də torpaqdan yaradılmışdır[62]".**

9-Hz. Əli (ə) belə buyurur: **"Allahın sənə rəhmət etməsini istədiyin kimi, sən də xalqa əfvini bağışla və heç bir əfvinə görə peşman olma[63]"!**

10-Hz. Əli (ə) belə buyurur: **"Allah, qullarının hüquqlarını öz hüquqlarının önünə keçirmişdir. Qulların haqlarını yerinə yetirməyə çalışan kimsə, Allahın haqlarını yerinə yetirməyə çalışan şəxs kimidir[64]".**

---

[58] Tuheful ukul, s.37
[59] Tuheful ukul, s.37
[60] Nəhcül Fesahat, s.657, h.3492
[61] Nəhcül Fesahat, s.657, h.3493
[62] Kenzul Ummal, c.15, s.548, h42116
[63] Gurerul Hikem, c.1, s.201, h.47 (Türkçəsi)
[64] Gurerul Hikme, c.1, s.734, h.1 (Türkçesi)

11-Sufyan bin Uyeynə, rəvayət edir: İmam Cəfər Sadiqin (ə) belə buyurduğunu eşitdim: **"Allah üçün onun qulları haqqında yaxşı düşünün. Çünki bundan daha üstün bir əməllə Allahın hüzuruna çıxa bilməzsiniz[65]".**

12-Seyf bin Əmirə rəvayət edir: İmam Cəfər Sadiqi (ə) dinləyən biri mənə belə izah etdi: Rəsulallaha (s): Allah qatında insanların ən istəklisi hansıdır? deyə soruşanda "**İnsanlara ən çox faydalı olan kəsdir[66]" buyurdu.**

13-Muaviye bin Əmmar rəvayət edir: İmam Cəfər Sadiq buyurur (ə): **"Allah:- İnsanlara xoş söz deyin[67]" – buyurduqda, məqsədi insanlar haqqında yaxşı sözlər söylətməkdir[68]".**

14-İmam Səccad (ə) belə buyurur: **"Əhli kitabın haqlarından biri də budur ki, Allahın onlardan qəbul etdiyini siz də qəbul edin, onlar verdikləri sözə sadiq olduqları müddətdə onlara zülm və giley rəva deyildir[69]".**

15- Bir gün Rəsulallah (s) Mədinədə yəhudi birinin dəfn mərasimində iştirak edib. Peyğəmbər bir qrup səhabəsinin bu mövqeyindən narahat olduqlarını görəndə, əshabına xitabən belə soruşdu: **Sizlərdən soruşuram ki, bu yəhudi insan deyilmi?!** Peyğəmbərin bu sualı qarşısında əshabələr heç bir cavab vermədən susdular.

---

[65] Usulu Kâfi, c.2, s.311, h.2022 (Türkçesi)
[66] Usulu Kâfi, c.2, s.312, h.2026 (Türkçesi)
[67] Bəqərə - 83
[68] Usulu Kâfi, c.2, s.312, h.2028
[69] -Risalei Hüquq, s.187

# MÜNDƏRİCAT


ÖN SÖZ ........................................................................................ 2

İSLAMDAKI MƏRHƏMƏT VƏ SEVGİNİN QURANA GÖRƏ TƏSVİRİ... 9

QURAN İŞIĞINDA RƏHMƏT VƏ SEVGİ ............................................ 11

İSLAMDAKI MƏRHƏMƏT VƏ SEVGİNİN HƏDİSLƏRDƏ ƏKSİ ........... 22

PEYĞƏMBƏR, ONUN XƏLİFƏLƏRİ VƏ DİN RƏHBƏRLƏRİNƏ AİD SEVGİ VƏ RƏHMƏT ÖRNƏKLƏRİ ........................................................ 34

HZ. ƏLİNİN (Ə) ƏHLİ-KİTABA QARŞI MÜNASİBƏTİ ............................. 37

ETİRAZLAR VƏ SUALLAR ................................................................... 44

İSLAMIN CİHAD HƏDƏFİ NƏDİR? ........................................................ 68

HƏDİSLƏR İŞIĞINDA HUMANİTAR ƏLAQƏLƏR VƏ YARDIMLAŞMALAR ........................................................................... 69